RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 210 (8233) ÇƏRŞƏNBƏ AXŞAMI, 24 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yollar qısalır, xərc azalır, gəlir artır

## Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə Azərbaycan regionun mərkəzi qovşağına çevrilib

**Əlverişli coğrafi mövqeyindən yararlanaraq mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan Cənubi Qafqazın geoiqtisadi, logistik mərkəzi kimi tanınır. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan ölkəmiz müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir.**

Əlbəttə ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır və bu layihələr siyasi vəziyyətə təsir edir, sabitliyin təminatına töhfə verir. Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərində yerləşən Azərbaycan bu imkanından istifadə etməklə qitələri və ölkələri birləşdirir.

Bütün bunlar onu deməyə əsas verir ki, artıq nəqliyyat-logistika aspektlərində Azərbaycan regionun mərkəzi qovşağına çevrilib. Ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri Azərbaycanın logistik mərkəzə çevrilməsi üçün real imkanlar yaradır.

Azərbaycanın Avrasiyanın əhəmiyyətli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinə yönəlmiş irimiqyaslı infrastruktur layihələri, ən yeni texnoloji standartlar səviyyəsində Gəmiqayırma Zavodunun istifadəyə verilməsi, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı və 2018-ci ildə Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi son illər Azərbaycanda bu istiqamətdə məqsədyönlü strateji planın uğurla reallaşdırılmasının bariz nümunələridir.

Azərbaycan Prezidentinin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Asiya və Avropa dəmir yollarının inteqrasiyasına öz töhfəsini verməkdədir. Bu gün Çindən Avropaya yüklərin 34 günə deyil, 12-15 gün ərzində çatdırılması bu dəmir yolunun bütün tərəflərə nə qədər iqtisadi dividendlər qazandırdığını bir daha təsdiqləyir.

2017-ci ildə fəaliyyətə başlayan və tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir. Bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Logistika mərkəzi həm Azərbaycanın, həm də Qafqazın coğrafi logistik inkişafına, ölkəmizin iqtisadi tərəqqisinə böyük töhfə verir.

Göründüyü kimi, İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

3 il öncə hazırlanan logistika və ticarətin inkişafına dair strateji yol xəritəsində bütün bunların reallaşması üçün hədəflər müəyyənləşdirilib. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" 2020-2025-ci illər və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətləri müəyyən edir. Sənəddə logistika üzrə inkişaf perspektivini özündə əks etdirən strateji məqsəd və hədəflər konkret ifadəsini tapıb. Eyni zamanda həmin məqsəd və hədəflərə çatmaq üçün prioritetlər də müəyyənləşdirilib. Daha konkret səviyyədə əsas və digər icraçıların, icra müddətlərinin, nəticə indikatorlarının əks olunduğu təfsilatlı tədbirlər planı hazırlanıb.

Nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi qarşıya qoyulan başlıca məqsəddir. Onu da əlavə edək ki, bu gün Azərbaycan tranzit-logistik imkanlarının daha da genişləndirilməsinə, dəmir yolu infrastrukturunun müasirləşdirilməsinə lazımi sərmayə yatırır.

Cənab İlham Əliyev bu istiqamətdə reallaşdırılan layihələri dəyərləndirərkən bildirib: "Coğrafi yerləşməmizdən istifadə edərək biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb".

Ölkənin tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətində mühüm yer tutur. Son 16 ildə etibarlı nəqliyyat dəhlizinin yaradılması istiqamətində həyata keçirilən layihələrə nəzər yetirsək bunu aydın şəkildə görərik.

*Ardı 4-cü səh.*

## Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının iştirakçılarına



Hörmətli konfrans iştirakçıları!

Əziz qonaqlar!

Sizi Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram. Belə mötəbər tədbirin ölkəmizin paytaxtında yenidən keçirilməsindən məmnunluğumu bildirirəm.

Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir. "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusuna həsr olunan hazırkı konfrans bu baxımdan təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcəkdir.

Azərbaycanın təhsil sistemində son illərdə bir sıra uğurlar qazanılmışdır. Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik. Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə, eyni zamanda beynəlxalq qiymətləndirmənin inkişaf prinsiplərinə əsaslanaraq lazımi araşdırmalar aparılmış və bu istiqamətdə normativ hüquqi baza təkmilləşdirilmişdir.

Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir. Əminəm ki, 55 ölkədən 300-dən artıq ekspertin qatıldığı konfransınızda qiymətləndirmə sisteminin müxtəlif aspektləri ilə bağlı geniş müzakirələr yeni qiymətləndirmə texnologiyalarının səmərəli tətbiqində və standartların formalaşdırılmasında mühüm rol oynayacaqdır.

Hamınıza cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının***
***Birinci vitse-prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2019-cu il*

## Quba rayonunun Quba-Qusar (9 km) - Alpan-Kürkün-Susay avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin
### SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beş min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Quba-Qusar (9 km)-Alpan-Kürkün-Susay avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,4 milyon (on üç milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 sentyabr 2019-cu il*

## Nazirlər Kabinetinin növbəti iclası olub

Sentyabrın 23-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov gündəlik barədə məlumat verib. Bildirib ki, iclasda "Azərbaycan Respublikasının 2020-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2020-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında" məsələ müzakirə olunacaq.

Novruz Məmmədov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev artıma və inkişafa əsaslanan iqtisadiyyatın şaxələndirilməsini və qeyri-neft sektorunun prioritetliyini təmin edən dayanıqlı icmal büdcənin və dövlət büdcəsinin hazırlanmasını qarşımıza qoyulan əsas vəzifələrdən biri kimi müəyyənləşdirib.

*Ardı 2-ci səh.*

## "Əsrin müqaviləsi" ilə Azərbaycan yeni inkişaf erasına daxil oldu

### Bu saziş Xəzər hövzəsini əməkdaşlıq məkanına çevirdi, regionun enerji xəritəsini dəyişdi



"Əsrin müqaviləsi"nin imzalanmasının 25 ili tamam oldu. 25 ilin tarix üçün çox qısa zaman kəsiyi olduğu hamının bildiyi həqiqətdir. Azərbaycanın bu qısa dövrdə - əsrin dörddəbirini təşkil edən vaxt ərzində gördüyü işlər, qazandığı nailiyyətlər isə misilsizdir, genişmiqyaslı və çoxşaxəlidir.

*Ardı 4-cü səh.*

## Torpağın "ağ qızıl" bəhrəsi

### Biləsuvarda pambıq yığımı sürət götürüb



**Hazırda respublikamızın 20 rayonunda pambıq yetişdirilir. Bu sahəyə az-çox bələd olanlar onun hansı zəhmətlə başa gəldiyini yaxşı bilirlər. Mütəxəssislər də deyirlər ki, gərək hər gün pambığın qayğısına qalasan ki, istədiyin məhsulu ala biləsən.**

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevlə də söhbətimiz əsasən bu barədə oldu. O dedi ki, kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişafı ilə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, verdiyi göstəriş və tapşırıqlar rayon əhalisinin ürəyincə olmuşdur. Pambıqçılıqdakı tərəqqi növbəli əkin sisteminin tətbiqinə imkan yaratmış, yeni iş yerlərinin yaradılmasına, adamların rifah halının yüksəlməsinə səbəb olmuşdur. Artıq bir neçə ildir ki, rayon pambıqçıları respublikada birincilər sırasındadır. Böyük uğurlar əldə etdiyinə görə Fazil Musayev birinci dərəcəli "Əmək" ordeni, Lətif Cəfərov "Tərəqqi" medalı və fəxri fərmanla təltif edilmişlər. Əmək adamlarının pul gəlirləri çoxalmış, gün-güzəranları yaxşılaşmışdır. Bunlar rayonun simasında da öz əksini tapmaqdadır. Tikilən müasir fərdi evlərin, şəxsi minik maşınlarının sayı ildən-ilə artır.

*Ardı 5-ci səh.*

# Nazirlər Kabinetinin növbəti iclası olub



*Əvvəli 1-ci səh.*

Azərbaycan Respublikasının 2020-ci il üçün dövlət büdcəsinin layihəsi "Büdcə sistemi haqqında" qanuna müvafiq olaraq ölkənin ortamüddətli büdcə və maliyyə sistemi, sosial-iqtisadi inkişaf proqnozları, qəbul edilmiş dövlət proqramlarının maliyyə təminatı əsas götürülməklə gələn il və sonrakı üç il üzrə makroiqtisadi proqnoz göstəriciləri, gözlənilən iqtisadi meyillər də nəzərə alınmaqla hazırlanıb. "Əminəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan və müasir çağırışlara cavab verən uğurlu sosial-iqtisadi siyasət qarşıdakı ildə də davam etdiriləcək, nəzərdə tutulan hədəflərə nail olunması ilə ölkəmizin davamlı inkişafı təmin ediləcək", - deyə Baş Nazir vurğulayıb.

Baş Nazir bildirib ki, dünya iqtisadiyyatında geriləmələrin müşahidə olunduğu bir vaxtda ölkəmizdə 2020-ci ildə ümumi daxili məhsulun həcminin 82,7 milyard manatdan çox, real artımın 2,4 faiz, qeyri-neft sektorunda artımın isə 3,3 faiz səviyyəsində olacağı proqnozlaşdırılır. Müzakirəyə təqdim olunan sənədlər iqtisadiyyatın səmərəliliyinin və dayanıqlılığının təmin edilməsinə, onun aparıcı sahələrinin möhkəmləndirilməsinə, əhalinin sosial rifahının, qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasına yönəldilib. Növbəti ildə dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi, təhsil islahatlarının davam etdirilməsi, elektrik təchizatı, içməli su, qaz və kanalizasiya sistemlərinin, yol tikintisinin maliyyələşdirilməsi əsas istiqamətlərdəndir. Eyni zamanda, layihədə kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi, əhalinin əsas ərzaq məhsulları ilə təmin olunması, aqrar sektora dövlət qayğısının artırılması və investisiya layihələrinin prioritetləşmə prinsiplərinə uyğun maliyyələşdirilməsi nəzərdə tutulur. 2020-ci ilin dövlət büdcəsinin layihəsində gəlirlərin ümumi daxili məhsulun 29,1 faizini, xərclərin isə 30,9 faizini təşkil edəcəyi, büdcə kəsirinin ümumi daxili məhsulun 1,4 faizi səviyyəsində olacağı proqnozlaşdırılır. Eyni zamanda, gələn il üzrə icmal büdcənin gəlirlərinin 27,6 milyard manat, xərclərinin 28,2 milyard manat həddində olacağı gözlənilir.

Sonra Maliyyə naziri Samir Şərifovun və İqtisadiyyat naziri Şahin Mustafayevin məruzələri dinlənilib.

İclasda gündəlikdəki məsələ ilə bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

# Azərbaycan Milli Məclisinin Sədri Nur-Sultanda Naxçıvan Sazişinin 10 illiyi ilə bağlı keçirilən "dəyirmi masa"da iştirak edib

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 23-də Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultan şəhərinə səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Oqtay Əsədovun və Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntopun rəhbərliyi ilə nümayəndə heyətləri Beynəlxalq Türk Akademiyasında olub, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişinin imzalanmasının 10 illiyi münasibətilə keçirilən "dəyirmi masa"da iştirak ediblər.

"Dəyirmi masa"da Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali bildirib ki, 2009-cu ildə türkdilli ölkələrin dövlət başçılarının ortaq qərarı əsasında Azərbaycanın Naxçıvan şəhərində yaradılan akademiyanın əsas məqsədi türk xalqlarının qədim və müasir tarixi, dil, ədəbiyyat və mədəniyyətini, habelə türk mədəniyyətinin bəşər sivilizasiyasına töhfəsini tədqiq etmək, türk dünyasında akademik fəaliyyətin əlaqələndirilməsini həyata keçirməkdir. Bu məqsədlə akademiya türk xalqlarının elmi qurumlarına elm və təhsil məsələsində yardımçı olur, türkdilli ölkələr və xalqların ziyalılarının təşəbbüslərinə dəstək verir, onları müntəzəm olaraq bir araya gətirir. Akademiyanın prezidenti Azərbaycana və Türkiyəyə türkdilli dövlətlər arasında inteqrasiyaya verdikləri dəstəyə görə təşəkkür edib. O, Prezident İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi ilə əlaqədar ötən il UNESKO-nun baş qərargahında təşkil olunan beynəlxalq forum çərçivəsində cümhuriyyətin 100 illik yubileyinin qeyd olunduğunu vurğulayıb. "Bu il isə "Nəsimi ili" çərçivəsində yenə də UNESKO-nun baş qərargahında keçirilən forumda böyük şairin 650 illik yubileyi və Naxçıvan Sazişinin 10 illiyi qeyd olunub", - deyə D.Kıdırali bildirib.



Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop türk dünyasının beynəlxalq münasibətlərdə güclü aktora çevrilməsinin vacibliyini və bu prosesdə bu il 10 illiyi qeyd olunan Naxçıvan Sazişi ilə qurulan ortaq regional təşkilatların rolunu vurğulayıb. Türk Şurası, TÜRKPA, Beynəlxalq Türk Akademiyası kimi təşkilatların qısa zamanda mühüm işlər gördüyünü deyən M.Şəntop "dəyirmi masa"ya evsahibliyi edən Beynəlxalq Türk Akademiyasının vacib elmi tədqiqatlar və elmi ekspedisiyalar təşkil etdiyini, çox sayda kitablar nəşr etdirdiyini söyləyib və bu istiqamətdə fəaliyyətin beynəlxalq səviyyədə təşviqinin önəmli olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri Oqtay Əsədov Naxçıvan Sazişinin imzalanmasının böyük tarixi hadisə olduğunu deyib və onun türkdilli dövlətlərin əməkdaşlığında yeni bir səhifə açdığını bildirib. Sədr hazırda türkdilli xalqların inteqrasiyasına xidmət göstərən önəmli təşkilatların - TÜRKPA-nın Baş Katibliyinin və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qərargahının Bakıda yerləşdiyini vurğulayıb. O, son illər Beynəlxalq Türk Akademiyasının fəaliyyətinin xüsusilə nəzərə çarpdığını, yaradıldığı qısa müddət ərzində onun türkdilli xalqların tarixi, mədəni və mənəvi irsinin araşdırılması və təbliği sahəsində bir sıra uğurlara imza atdığını qeyd edib. Parlamentin Sədri əmin olduğunu bildirib ki, akademiya öz fəaliyyəti ilə ümumi dəyərlərimizin qorunmasına və inkişafına hələ çox töhfələr verəcək.

Sonra Oqtay Əsədova və Mustafa Şəntopa türkdilli dövlətlər və xalqlar arasında inteqrasiyanın dərinləşdirilməsi, təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafında xidmətlərinə görə Beynəlxalq Türk Akademiyasının qızıl medalı təqdim olunub.

Həmçinin səfər çərçivəsində qonaqlar Beynəlxalq Türk Akademiyasında fəaliyyət göstərən Türk Muzeyini ziyarət edib və türkologiya sahəsində 50 mindən çox nadir kitabın toplandığı kitabxana ilə tanış olublar.

Xatırladaq ki, Milli Məclisin Sədri Oqtay Əsədov Nur-Sultan şəhərində keçiriləcək Avrasiya ölkələri parlament sədrlərinin IV konfransında iştirak edəcək. Tədbirə Avropa və Asiyanın müxtəlif ölkələrinin parlament rəhbərləri və nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri dəvət olunublar.

"Böyük Avrasiya: Dialoq. Etimad. Tərəfdaşlıq" mövzusunda keçiriləcək konfransın əsas məqsədi Avrasiya məkanında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün Avropa və Asiyanın qanunverici orqanlarının rəhbərləri və parlamentlərarası təşkilatların başçıları arasında birbaşa dialoqun qurulmasıdır.

Səfər çərçivəsində Milli Məclis Sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri də nəzərdə tutulub.

# Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir

## Bakıda IAEA 2019 beynəlxalq konfransının açılış mərasimi keçirilib

Sentyabrın 23-də Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA: International Association for Educational Assesment) "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransının (IAEA 2019) rəsmi açılış mərasimi keçirilib. Konfransın Azərbaycanda təşkilatçısı Dövlət İmtahan Mərkəzidir.




IAEA-nın illik konfransı ölkəmizdə ikinci dəfədir təşkil olunur. Builki konfransın işində Azərbaycanla birgə 55 ölkədən 300-dən çox nümayəndə iştirak edir.

Konfransın rəsmi açılış mərasimində iştirakçılar Azərbaycan Respublikasının Dövlət himnini ifa ediblər.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən IAEA prezidenti Rendi Bennett Dövlət İmtahan Mərkəzinin IAEA-nın mövzularla zəngin bu tədbirinin Azərbaycanda yenidən keçirilməsi üçün səylə çalışdığını vurğulayıb. Bildirib ki, Dövlət İmtahan Mərkəzi maraqlı və informativ elmi proqram, habelə Xəzərin sahilində yerləşən gözəl Bakı şəhərində bir sıra sosial tədbirlər işləyib hazırlayıb. IAEA 2019 təhsilin qiymətləndirilməsini necə inkişaf etdirə biləcəyimiz ətrafında stimullaşdırıcı mübadilə ilə dolu xüsusi bir konfrans vəd edir. Konfransın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusu apardığımız araşdırmanın və tətbiq etdiyimiz təcrübənin mərkəzində qiymətləndirmənin məqsəd və istifadəsini qoyur. "Qoy bu konfrans zəngin ideya və diskussiyalarla, habelə təşviq edəcəyi zəngin qarşılıqlı əlaqələrlə yadda qalsın. Təhsilin səmərəliliyini artırmaq və dünyanı daha da yaxşılaşdırmaq naminə birgə işləməyimizə kömək etsin", - deyən Rendi Bennet konfrans iştirakçılarına məhsuldar və xoş həftə arzulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik beynəlxalq konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

Tədbirdə çıxış edən Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə konfransın Bakıda ilk dəfə 2007-ci ildə keçirildiyini xatırlayaraq deyib: "Əvvəlki tədbirimizdən artıq 12 il keçib. Bu müddət ərzində həm biz dəyişmişik, həm də dünya bir çox yeni nəzəri, mədəni və texnoloji yeniliklərin təsirlərinə məruz qalıb. Bütün bunlar da öz növbəsində öyrətməyə, öyrənməyə və ümumilikdə təhsilə təsirsiz ötüşməyib. Bu cür böyük dəyişikliklər, heç şübhəsiz, təhsildə qiymətləndirmədə də dəyişikliklərə səbəb olmalıdır. Artıq onilliklərdir ki, qiymətləndirmə təhsildə aktuallaşan prioritetlərdən birinə çevrilib və bu sahədə islahatlar aparılması da əsas müzakirə mövzularındandır.

Nailiyyətlərin sınağı və bu barədə ictimaiyyətə hesabat verilməsi, uşaqların həyat imkanlarını genişləndirmək məqsədilə mövcud resurslardan istifadə barədə siyasətçiləri və cəmiyyəti aşkar məlumatlandıra biləcək azsaylı vasitələrdən biri kimi görünür.

Keçmiş təcrübəyə və ötən il Oksfordda "Qiymətləndirmə və böyük verilənlər" mövzusu üzrə keçirilən konfransın nəticələrinə əsaslanaraq söyləyə bilərik ki, əksər qiymətləndirmələr zamanı məlumatların azlığı qarşıya çıxan problemlər arasında yer almır. Çünki əslində əksər hallarda aydın qərar qəbul etmək üçün kifayət qədər çox məlumat bazası olur. Buna görə də builki konfransın mövzusunu daha çox müzakirəyə ehtiyac duyulan istiqamətdə - "Qiymətləndirmə və qərar qəbuletmə" kimi müəyyən etdik.

Məhz bu baxımdan, institusional islahat vasitəsi kimi təhsildə qiymətləndirməni təşviq edən ən yaxşı qiymətləndirmə tədqiqatçılarını və əsas şəxsləri konfransımıza dəvət etdik. Onlar sizinlə qiymətləndirməyə əsaslanan qərar qəbuletmənin müxtəlif perspektivlərini müzakirə edəcəklər.

Bu sıraya ibtidai təhsildə test, dil biliklərinin qiymətləndirilməsi, qiymətləndirmə sistemləri, sinif qiymətləndirməsi, qiymətləndirmə fəlsəfələri, qiymətləndirmənin yoxlanılması sistemləri, qiymətləndirmənin tərtib olunması, müəllimlərin sertifikasiyası daxildir.

Həmçinin qərar qəbuletmə, siyasətin formalaşdırılması, ali təhsil, qiymətləndirmə strategiyaları, müəllim inkişafı, psixoloji qiymətləndirmə, müəllim hazırlığı və qiymətləndirmə, yazı işlərinin qiymətləndirilməsi, validlik, qiymətləndirmə metodları, müqayisəli tədqiqatlar, diaqnostik qiymətləndirmə, qiymətləndirmə standartları, testdə keyfiyyətin təmin olunması, seçim üçün qiymətləndirmə, texnologiya, qiymətləndirmə islahatları, qiymətləndirmənin tətbiqi modelləri, qəbul proqnozları, regional inkişaf müzakirə olunacaq əsas mövzulardır.

**Ardı 3-cü səh.**

# Ələt azad iqtisadi zonasının yaradılması istiqamətində işlər sürətləndirilir

Sentyabrın 23-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirildi.



Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov iclası açaraq bildirdi ki, gündəliyə "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi daxil edilib.

Valeh Ələsgərov dəyişikliyin mahiyyəti barədə məlumat verdi. Bildirildi ki, qanuna "Keçid müddəaları" adlı yeni 32-ci maddənin əlavə edilməsi təklif olunur. Yeni maddəyə görə, bu qanunda nəzərdə tutulmuş azad zona səlahiyyətli qurumu və onun idarə heyəti formalaşana qədər azad zona səlahiyyətli qurumunun və idarə heyətinin hüquqlarını və vəzifələrini müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan müvəqqəti idarəetmə qurumu həyata keçirir.

Qeyd edildi ki, azad iqtisadi zona ərazisində lazımi təşkilati məsələləri həll etmək üçün müvafiq səlahiyyətli qurum olmalıdır. Bu qurum infrastrukturun yaradılması, kadrların hazırlanması, layihələrin həyata keçirilməsi, ətraf mühit problemlərinin həllinə və digər zəruri işlərin yerinə yetirilməsinə xidmət edəcək. Nəzərdə tutulan düzəliş Ələt azad iqtisadi zonasının fəaliyyətinin daha səmərəli olmasını və daha da sürətləndirilməsini nəzərdə tutur.

İclasda çıxış edən deputatlar Vahid Əhmədov, Rüfət Quliyev, Əli Məsimli, Cavid Qurbanov gündəlikdəki məsələ barədə fikirlərini açıqladılar. Bildirildi ki, ümumiyyətlə, azad iqtisadi zonanın fəaliyyətə başlaması iqtisadiyyatın inkişafına, o cümlədən ümumi daxili məhsulun artmasına müsbət təsir göstərəcək, neftdən kənar sahələrin ixrac imkanlarını genişləndirəcək.

Müzakirələrin yekununda "Ələt azad iqtisadi zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə" sənəd Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakıda "Qafqaz Qartalı - 2019" birgə təlimi başlayıb





Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin əldə etdikləri razılığa əsasən üç ölkənin xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə Bakıda "Qafqaz Qartalı - 2019" birgə təlimi başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimdə hava komponentlərindən də istifadə olunmaqla şərti hədəfin məhv edilməsi, girovların azad olunması, yaralıların təxliyəsi və digər tapşırıqlar yerinə yetiriləcək. Oktyabrın 1-dək davam edəcək təlimə Pakistanın hərbi qulluqçuları müşahidəçi qismində qatılıblar.

# Əlahiddə Ümumqoşun Orduda döyüş atışlı taktiki təlimlər keçirilib





"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən Əlahiddə Ümumqoşun Ordunun artilleriya, reaktiv və tank əleyhinə batareyaları ilə döyüş atışlı taktiki təlimlər keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, döyüş tapşırığının icrasına yaxınlaşdırılmış şəraitdə keçirilən təlimlərdə əsas məqsəd zabitlərin ixtisas biliklərinin təkmilləşdirilməsinə və batareyaların daim döyüşə hazır olmasına yönəldilib. Planlı və plandankənar hədəflərin tam dəqiqliyi ilə məhv edildiyi təlimlərdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

# Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir






*Əvvəli 2-ci səh.*

Bundan əlavə, biz, Astana Dövlət Qulluğu üzrə Regional Xab tərəfindən dəstəklənən dövlət qulluğu panelini də builki proqrama daxil etmişik. Ümid edirəm ki, panel sessiyaları və müzakirələr intellektual baxımdan stimullaşdırıcı və faydalı olacaq.

Biz yeni ideyaların yaranmasında, qarşılıqlı əməkdaşlığın qurulmasında çox maraqlıyıq! Biz buna çərşənbə günü Cambridge Assessment (Kembric Qiymətləndirmə) ilə tərəfdaşlıq sazişi imzalamaqla başlayırıq. Biz təhsildə qiymətləndirmə üsullarının tətbiqi ilə əlaqədar olan hər bir kəslə əməkdaşlıq etməyə hazırıq və bunu səbirsizliklə gözləyirik.

Tərəfdaşlarımız, sponsorlarımız və bütün bizə dəstək olanlarla birgə sizin Bakıya bu gəlişinizi xoş xatirələrlə zəngin və unudulmaz etməyə çalışmışıq!

Bu həftə burada toplaşan və Bakını yenidən təhsilin qiymətləndirilməsi üzrə müzakirələr mərkəzinə çevirən hər bir kəsə dərin təşəkkürümü bildirirəm".

Təhsil naziri Ceyhun Bayramov ölkəmizdə bu cür nüfuzlu tədbirin təşkilinin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas istiqamətləri sırasında səriştəyə əsaslanan təhsil məzmununun və yeni təhsil idarəetmə sisteminin yaradılması, ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsi və yüksəkixtisaslı kadrlar hazırlanmasının təmin edilməsi, rəqabətqabiliyyətli mütəxəssislər yetişdirilməsi, həmçinin təhsilin beynəlmiləlləşdirilməsi imkanlarının genişləndirilməsi önəmli məsələlərdir. Son 6 ildə təhsilin keyfiyyətində xeyli irəliləyiş əldə edilib. Əldə olunan nailiyyətlərin gedişatını ölçmək üçün Azərbaycan bir sıra beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak edir. "Progress in International Reading Literacy Study" (PIRLS) - oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqatın nəticələrinə görə, azərbaycanlı şagirdlərin 2016-cı ildə oxu bacarıqları 2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 462 baldan 472 bala yüksəlib və ya 10 bal artıb.

Azərbaycanda məktəbəqədər təhsil səviyyəsinin inkişafı istiqamətində mühüm addımlar atılır. Son üç ildə 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb göstəricisi 24 faizdən 75 faizə kimi artırılıb.

Ölkəmizdəki mərkəzləşdirilmiş imtahan modelinin yüksək səviyyədə şəffaflıq və rəqabət əldə etməsi baxımından həlledici rolu olub.

Milli tədris proqramları gələcək əmək bazarının ehtiyaclarını ödəmək, öyrənənlərin fərdi rifahına və xoşbəxtliyinə nail olmağa xidmət edir. Bu məqsəd üçün qiymətləndirmə siyasəti əsas aparıcıdır.

Təhsil sistemini dünyada baş verən sürətli dəyişikliklərə uyğunlaşdırmaq əsas istiqamətlərdən biri olmalıdır.

İnanıram ki, konfrans hamımızın bu sahədə ən yaxşı təcrübələrimizi bölüşmək və qarşılaşdığımız ümumi problemləri müzakirə etmək üçün bir platforma olacaq.

Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev bildirib ki, konfransın gündəmində duran məsələlər, o cümlədən qiymətləndirmə proseslərində texnologiyaların rolu, imtahan proseslərinə aid psixoloji tədqiqatlar artırılması, təhsildə müəllimlərin yeri universitetlərin gündəlik işinə bilavasitə təsir edir.

Rektor vurğulayıb ki, təhsildə şəffaf və etibarlı qiymətləndirmə prosesinin inkişafı üçün Azərbaycan mühüm irəliləyişlər əldə edib - sovet dönəmindən qalan subyektiv və qərəzli qiymətləndirmə bilik və qabiliyyətləri aydınlaşdıran imtahan sistemi ilə əvəz olunub. Məhz bunun nəticəsində ölkədə həm universitetlərin keyfiyyəti, həm də onların məzun etdiyi insan kapitalının səviyyəsi müvafiq şəkildə qalxıb.

ADA Universitetinin təcrübəsi ilə bölüşən Hafiz Paşayev deyib ki, rəhbərlik etdiyi ali təhsil ocağı ölkədə bakalavr proqramlarına qəbulda beynəlxalq SAT imtahanının nəticələrini nəzərə alan ilk universitet idi. SAT nəticələri ADA-nın ərizə qəbulu prosesində tələb olunan digər sənədlər və daxili müsahibə mərhələsinin nəticələri ilə birgə nəzərə alınır. Hazırda bu təcrübədən ölkənin digər universitetlərində də istifadə olunur.

Hafiz Paşayev diqqətə çatdırıb ki, ADA Universiteti davamlı olaraq Dövlət İmtahan Mərkəzi ilə işləyərək ölkədə imtahan sisteminin təkmilləşdirilməsi üçün yeni yollar və üslublar üzərində çalışır. Buna misal kimi, imtahanlar zamanı istifadə olunan sualların abituriyentlərin məntiqi və tənqidi düşüncə tərzini yoxlamağa istiqamətləndirildiyini göstərmək olar. Beləliklə, tələbələr əzbərçilikdən uzaqlaşaraq təhlil və tənqid kimi vacib qabiliyyətləri inkişaf etdirirlər. Bundan əlavə, ADA Universiteti ölkədə ilk dəfə olaraq orta məktəbin əhəmiyyətini vurğulamaq məqsədilə pilot layihəsi çərçivəsində ali təhsilə qəbul imtahanlarını orta təhsildən məzun imtahanlarının nəticələri ilə birləşdirdi. Belə ki, bu ildən fəaliyyətə başlayan ADA Məktəbinin məzunları ADA Universitetinin bakalavr pilləsinə məktəbin yekun daxili orta bal qiymətləndirmə sistemi (Cumulative Grade Point Average) əsasında qəbul olunacaqlar. Hafiz Paşayev bu yeniliyin də ölkənin təhsil sisteminə müsbət meyillər gətirəcəyinə inandığını dedi və bildirdi ki, ADA Universiteti dataya əsaslanan təhlil nəticəsində qəbul prosesini daha da təkmilləşdirmək üçün Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıqda humanitar və texniki elmlər üzrə bilikləri qiymətləndirəcək vahid imtahanın institusional həlli yollarını axtaracaq. Bu da məktəbliləri əlavə müəllimlə məşğul olmaq zərurətindən azad edəcək.

Orta məktəb mühitinin vacibliyini diqqətə çatdıran rektor Hafiz Paşayev vurğuladı ki, sinif mühiti tək şagirdlərə bilik və bacarıq vermək üçün deyil, həm də vətəndaş hazırlayan mühit kimi labüddür.

ADA Universitetinin rektoru konfrans müzakirələrinin nəticələrinin dünyanın hər yerində təhsilin keyfiyyətinin qaldırılmasına xidmət edəcəyinə inamını bildirib.

Açılış mərasimində Kolumbiya Universitetindən (ABŞ) Amra Sabik-El Rayessin videomüraciəti təqdim olunub. Müraciətdə Amra Sabik-El Rayess 2018-ci ildə ABŞ dövlət departamenti və Azərbaycan Təhsil Nazirliyi tərəfindən ölkəmizə işə dəvət edildiyini xatırlayaraq deyib: "Bu, Azərbaycanın təhsil sistemi, onun imkanları və qarşılaşdığı çətinliklərini öyrənməyim üçün böyük fürsət oldu. Uzun illər araşdırdığım sistemlərdən fərqli olaraq, Azərbaycan təhsilin testlə yoxlanılması sahəsində nəzərəçarpan addımlar atıb və digər ölkələr bundan nümunə götürə bilər. Dövlət İmtahan Mərkəzi (DİM) publik hüquqi şəxs kimi Azərbaycanda təhsil sahəsində standartlaşdırılmış test imtahanlarının keçirilməsinə məsuliyyət daşıyır və təhsildə hərəkətliliyə ictimai inamın yenidən qurulmasında aparıcı rol oynayır. Azərbaycana gələndə verdiyim ilk sual DİM-in bunu necə etməsi haqqında olmuşdu. Cavab isə belə idi: DİM subyektiv təsiri minimuma endirmək üçün texnologiyanın tətbiqindən geniş istifadə edir. DİM, eyni zamanda, "Educational Testing Services", UNESKO və digər beynəlxalq qurumlarla əməkdaşlığı genişləndirib. Bu, Azərbaycan tələbələrinin DİM tərəfindən aparılan test imtahanlarının legitimliyinə olan inamının bərpasına kömək edib. DİM ali təhsildə test üsulunun obyektivliyi və şəffaflığının təkmilləşdirilməsi ilə yanaşı, 2012-ci ildən bəri orta məktəblərdə buraxılış imtahanlarını da standartlaşdırılmış test üsulu üzrə keçirməyə başlayıb. Sizə maraqlı ola bilər ki, onları işlərini genişləndirməyə nə vadar etdi? 2012-ci ilə qədər məktəblərdə ilk sıralarda olan şagirdlər ali məktəblərə qəbul imtahanlarında heç də həmişə yüksək nəticə göstərmirdilər. İlk baxışdan orta məktəblərdə test üsullu qiymətləndirmənin tətbiqi bir qədər subyektiv görünə bilərdi. Ancaq DİM buraxılış imtahanlarını keçirməyə başlayandan sonra şagirdlərin həmin imtahanlardakı nəticələri ali məktəblərə qəbul imtahanlarında göstərdikləri nəticələrlə uyğunluq təşkil etməyə başladı. Bəlkə də ən mühüm məqam odur ki, DİM-in təcrübəsi və faktlara əsaslanan yanaşma tətbiq etməsi, əksəriyyət tərəfindən etibarlı və obyektiv hesab edilməyən standartlaşdırılmış test imtahanlarına ictimai etimadın bərpa olunmasını sürətləndirib. Bu isə öz növbəsində, illər keçdikcə qəbul imtahanlarında iştirak etmək üçün müraciətlərin sayının artmasına, eləcə də kənd yerlərində aztəminatlı və məcburi köçkün ailələrindən olan şagirdlərin ali təhsil alması istiqamətində geniş imkanlara yol açıb. Standartlaşdırılmış test imtahanına ictimai inamın bərpa olunması ilə test imtahanlarına hazırlıq sənayesi yaranıb və bu, Azərbaycan müəllimlərinin iş imkanlarını genişləndirib.

Burada Azərbaycanla bağlı ən mühüm məsələ isə budur: DİM tənqidi siyasi iradənin istənilən növ məntiqli transformasiyada necə mühüm rol oynadığını bizə öz gördüyü işlərlə sübut etdi.

Azərbaycanın inkişaf yolu təhsildə ruhlandırıcı və transformasiyalı tarixçələrin mövcud olduğunu bizə öyrədir. Azərbaycanın standartlaşdırılmış test təcrübələrinin transformasiyasında əldə etdiyi uğurun şahidi olduqca ümid edirəm ki, ölkə millətin təhsili və iqtisadiyyat arasında daha geniş əlaqəni uğurla inkişaf etdirəcək".

Konfransda Böyük Britaniyanın Durham Universitetinin professoru Piter Tims "İlkin qiymətləndirmənin üstünlüyü: ibtidai təhsildə potensialın və inkişafın ölçülməsi" mövzusunda əsas məruzə ilə çıxış edib. O, məruzəsində ilkin təhsildə bilik və bacarıqların səmərəli qiymətləndirilməsini təşkil etməyin zəruriliyini bildirib. Qeyd edib ki, təhsil proqramlarını indikindən daha qətiyyətli şəkildə tərtib etməklə fərdi problemlər yaranmamışdan əvvəl onları müəyyənləşdirib aradan qaldırmaq mümkün olar. Növbəti il ikinci bir qiymətləndirmənin aparılması daha ciddi şəkildə tələbələrin xüsusi ehtiyaclarının müəyyən edilməsinə, onların il ərzində şagird, məktəb və ölkə səviyyəsində hesab, oxu, sosial və fiziki inkişaf sahələri üzrə inkişaf səviyyələrini ölçməyə kömək edəcək. Yetərli səviyyədə olmayan TIMSS (Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramı) və PISA (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) kimi təhsil nailiyyətlərinin qiymətləndirilməsi tədqiqatlarına güvənməkdənsə, ilkin qiymətləndirmənin düzgün aparılması bütün təhsil sistemlərinin təsirinin dəyərləndirilməsi üçün təməl rolunu oynayacaq.

Piter Timsin fikrincə, dünyada təhsil sahəsində yüzlərlə ilkin qiymətləndirmənin fəaliyyət göstərdiyi bir dönəmdə niyə bu sahədə böyük irəliləyişləri görmədiyimizi aydınlaşdırmaq ağlabatandır. Cavab isə budur ki, qarşılaşdığımız çağırışlar son dərəcə ciddidir. Bunların sırasında bir neçə əsas olan aşağıdakılardır; uşaqların diqqət yayınıqlığı (qısa konsentrasiyası dövrü), onların çoxunun ilkin təhsilə başlayarkən oxuya və yaza bilməməsi, müvafiq məktəbəqədər tədris planının olmaması, cavabdehlik üzrə testin mənfi nəticələri və uşaqların bilik və bacarıqlarının ibtidai təhsil üzrə ekspertlər tərəfindən dəyərləndirilməsinə qarşı geniş yayılmış narazılıq.

Bu yaşda qısa, lakin daha əhatəli qiymətləndirmə aparılmalıdır. Bu qiymətləndirməni aparan şəxsin kimliyindən asılı olmayaraq prosesin eyni nəticələri olmalı, həm də müxtəlif dillər və mədəniyyətlərlə müqayisə edilə bilən olmalıdır. Həmin qiymətləndirmə prosesi müəllimlərin də rəğbətini qazanmalıdır. Bu məqsədə tam nail olunmasa belə, bu qiymətləndirmə nəyin üzərində çalışmalı olduğumuzu nümayiş etdirir.

Piter Tims irəli sürdüyü fikirləri konkret nümunələrlə əsaslandırıb.

Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransı sessiyalarla davam edib.

Konfrans çərçivəsində "İbtidai təhsildə test", "Dilin qiymətləndirilməsi", "Qiymətləndirmə sistemləri", "Sinif qiymətləndirməsi", "Qiymətləndirmə fəlsəfələri" mövzularında sessiyalar keçirilib.

Sessiyalarda çıxış edənlər mövzularla bağlı apardıqları araşdırmalardan və təmsil etdikləri ölkələrin təcrübəsindən danışıblar.

Niderlandın Cito təhsilin ölçülməsi institutundan Frans Kleintjes təlim nəticələrini artırmaq üçün şagirdlərin monitorinq sisteminin Kürasaoda tətbiqindən danışıb.

Dövlət İmtahan Mərkəzinin əməkdaşları Məhəmməd Adıgözəlov və İlahə Gülalıyeva "5-6 yaşlı uşaqların intellektual inkişaf səviyyəsini müəyyənləşdirmək üçün testin hazırlanması" mövzusunda çıxış ediblər. Qeyd olunub ki, praktik psixoloqlar üçün metodik ədəbiyyatın əksəriyyətində çox vaxt düzgün sınaqdan keçirilməmiş alətlər yer alır. Digər tərəfdən, bəzi mütəxəssislər və məktəblər uşaqlara diaqnoz qoymaq üçün xarici norma və standartları tətbiq edirlər.

Diqqətə çatdırılıb ki, tədqiqat zamanı mövcud zəka testləri nəzəri və metodoloji təhlil edilib, məktəbdə uşaqların psixoloji problemlərinə aydınlıq gətirilməyə çalışılıb. Araşdırma zamanı məktəb yaşı çatmamış uşaqların zehni inkişafının ümumi qəbul edilmiş quruluşundan, intellektual inkişaf səviyyəsinin hərtərəfli diaqnozu üçün metodologiyadan, valideynlər və müəllimlər üçün ayrıca anketlərdən istifadə edilib, sosial-psixoloji amillər nəzərə alınıb.

"Dil biliklərinin qiymətləndirilməsi" sessiyasında qiymətləndirmədə və rəqəmsal savadda istifadə olunan dilin araşdırılması, qlobal miqyasda ingilis dili və Çin dili standartlarının müqayisəli təhlili istiqamətində müzakirələr aparılıb. Həmçinin sessiyada Kembric Qiymətləndirmə departamentindən Daniel Broker və Dövlət İmtahan Mərkəzindən Vəli Hüseyn "Qiymətləndirmə və qərar qəbulu: ingilis dilinin qiymətləndirilməsi üzrə Kembric və Azərbaycan arasında bilik mübadiləsi və əməkdaşlıq" mövzusunda təqdimat ediblər.

"Qiymətləndirmə sistemləri" sessiyasında Dövlət İmtahan Mərkəzinin əməkdaşı Pərviz Kazımov "Fərdi, institusional və ümummilli qərar qəbulu üçün inteqrasiya olunmuş qiymətləndirmə sistemi ilə əldə edilən məlumatlardan səmərəli istifadə yolları" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, Dövlət İmtahan Mərkəzi orta məktəblərin buraxılış imtahanları, universitetlərə qəbul, habelə dövlət qulluğuna namizədlərin seçimi daxil olmaqla kompleks qiymətləndirmə sistemini idarə edir. Qurumun fəaliyyətinin ilk mərhələlərində mərkəzləşdirilmiş imtahan sisteminin yeganə məqsədi universitetlər üçün tələbələrin qərəzsiz seçilməsini təmin etmək olsa da, sonradan fərdi və institusional qərar qəbulu üçün nəhəng məlumat istehsalı platformasına çevrilərək texniki və tədqiqat potensialını artırıb. Platforma namizədlər və təşkilatlar daxil olmaqla bütün maraqlı tərəflərin tələblərini uyğunlaşdırmaq üçün hazırlanıb. Çeviklik, texnologiyaya əsaslanan dizayn və elmi yanaşma, sistemin fasiləsiz və bəzən fərdi və institusional potensialın artırılmasına yönəlmiş müsbət dəyişikliklərin və yeniliklərin hərəkətverici qüvvəsi kimi çıxış etməsinə imkan verir.

Dövlət İmtahan Mərkəzi tərəfindən idarə olunan mütəxəssislər və müəllimlər şəbəkəsi müxtəlif qiymətləndirmə vasitələrini inkişaf etdirir, təhsil müəssisələrinin, dövlət qurumlarının və şəxslərin xüsusi tələblərinə uyğun olaraq qiymətləndirmə prosedurlarını idarə edir. 2016-cı ildən Dövlət İmtahan Mərkəzi dövlət qulluğuna namizədlərin seçilməsini idarə etməyə başlayıb. Bu, ali təhsil səviyyəsində qiymətləndirmənin təsdiqlənməsi və universitet təhsilinin real karyera tələbləri ilə uzlaşdırılması üçün yeni perspektiv açır.

"Sinif qiymətləndirməsi" sessiyasında Azərbaycan Müəllim İnkişaf Mərkəzinin direktor müavini Xədicə Cəfərova "Sinif qiymətləndirmələrindən istifadə etməklə tədris haqqında əsaslandırılmış qərar qəbulu" mövzusunda çıxış edib. Diqqətə çatdırıb ki, yeni qiymətləndirmə sistemini mənimsəmək və faydalarını artırmaq üçün dəqiq konsepsiya hazırlanmalıdır. Bu sənəd sinif qiymətləndirmələrinə konseptual səviyyədə baxır və tədris praktikasının təkmilləşdirilməsi məqsədilə qərar verməkdə rolunu təhlil edir. Beləliklə, diaqnostik və formativ qiymətləndirmələrə dinamik baxılır (məlumatların toplanması, təfsiri və bundan sonra nə ediləcəyi barədə qərar); summativ qiymətləndirməyə statik baxılır (tələbənin akademik fəaliyyətinin vahid, dövlət standartları və s. baxımından qiymətləndirilməsi).

"Qiymətləndirmə fəlsəfələri" sessiyasında toxunulan problemlərdən biri "IQ testlərində məntiq sualları nə qədər məntiqlidir?" mövzusu olub. Bu barədə çıxış edən ADA Universitetindən Yaqub Əliyev sualların determinist (bilik və bacarıqlar əsasında həll edilə bilən) və ehtimal olunan (şansın olması ilə həll edilə bilən) növlərinə diqqəti çəkib. Bildirib ki, şans elementləri olan məntiq suallarından qəbul və ya buraxılış imtahanlarında, işə qəbul testlərində istifadə etmək düzgün deyil.

Günün davamında "Qiymətləndirmənin yoxlanılması sistemləri", "Qiymətləndirmənin tərtib olunması", "İbtidai təhsildə test", "Müəllimlərin sertifikasiyası", "Qərar qəbuletmə" mövzularında sessiyalar keçirilib.

Bakı Avropa Liseyinin direktoru Zülfiyyə Veysova "Müəllim standartları rubrikaları əsasında müəllim peşə inkişafının müəyyənləşdirilməsi" mövzusunda məruzə edib. O, 2014-2015-ci illərdə Azərbaycanda ilk dəfə olaraq müəllim standartları hazırlandığını xatırladıb. Diqqətə çatdırıb ki, hər alt standartlarla əlaqəli rubrikalar müəllimlərə peşəkar inkişafını dörd səviyyəyə görə qiymətləndirməyə imkan verir: az təcrübəli, təcrübəli, peşəkar və lider. Rubrikalardan istifadə edərək müəllimlər karyera pillələrində təcrübələrini qiymətləndirmək və həmkarlarından rəy almaq üçün əsas sahələri müəyyən edə bildilər. Tədqiqat göstərdi ki, hazırlanmış rubrikalardan həm müəllimin peşə səviyyəsini qiymətləndirmək, həm də peşəkar inkişaf ehtiyaclarını müəyyən etmək, müəllimin məktəb rəhbərliyi və ya hökumət tərəfindən dəstəklənə biləcəyi ən vacib sahələri aydınlaşdırmaq üçün istifadə edilə bilər.

Sessiyalarda "Dəyişən məlumatlar: qiymətləndirmələrin qiymətləndirilməsi üçün çərçivə", "Avtomatik qiymətləndirmə sistemini necə dəyərləndirmək olar?", "İmtahan keyfiyyətinin təmin olunmasına dair RCEC təşkilatının dəyərləndirmə sistemi", "Yüksək səviyyə üçün çoxmərhələli testin hazırlanması və inkişafı", "PISA 2021 və ondan kənarda: yaradıcı düşüncə üçün innovativ təlim və qiymətləndirmə həllərinin dizaynı və inkişafı", "Oxu üzrə birinci sinif skrininq testi üçün predmetlər hazırlanması: baza testi", "Kompüterləşdirilmiş ssenari əsaslı qiymətləndirmədə fərqli test kontekstinin rolu" və digər mövzularda məruzələr dinlənilib.

Konfransın işıqlandırılmasında AZƏRTAC Dövlət İmtahan Mərkəzinin rəsmi media tərəfdaşıdır. IAEA-nın üzvü olan Dövlət İmtahan Mərkəzi bu təşkilatın keçirdiyi tədbirlərdə mütəmadi iştirak edir. IAEA 1975-ci ildən başlayaraq hər il bu cür konfranslar keçirir. Azərbaycan hələ 2007-ci ildə MDB ölkələri arasında IAEA tərəfindən belə bir konfrans keçirilən ilk ölkə olub.

IAEA 2019 beynəlxalq konfransı sentyabrın 27-dək davam edəcək.

# Peşə təhsili sahəsində islahatlar davam edir

**Bugün peşə təhsili ölkəmizin təhsil siyasətində əsas prioritetlərdən biridir. Məhz peşə təhsili bütün seqmentlər üzrə ixtisaslı kadr hazırlığının təmin edilməsində aparıcı rola malikdir. Peşə təhsili sisteminin yenidən qurulması, bu sahədə çevik idarəetmənin təmin edilməsi məqsədilə son illərdə 24 ixtisaslaşmış peşə təhsili mərkəzi yaradılıb.**

Mühəndis-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsinə və əməkhaqqının artırılmasına başlanılıb, müəllimlərin və istehsalat təlimi ustalarının bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılıb, onların həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşı orta hesabla 2 dəfə artırılıb. Bu istiqamətdə tədbirlər cari ildə də davam etdirilməkdədir.

Avropa İttifaqının dəstəyi ilə 4 layihənin icrasına başlanılıb. Gəncə, Qəbələ, Qax, İsmayıllı və Bərdə rayonlarında peşə təhsili müəssisələrində infrastrukturun müasirləşdirilməsi, yeni kurikulumların hazırlanması və mühəndis-pedaqoji heyət üçün təlimlərin təşkili ilə bağlı tədbirlər həyata keçirilməkdədir.

## Sənaye və innovasiyalar üzrə ixtisaslaşan müasir peşə təhsili mərkəzi

Koreya İqtisadi İnkişaf və Əməkdaşlıq Fondu ilə imzalanan Kredit Sazişinə əsasən Bakı şəhərində sənaye və innovasiyalar üzrə ixtisaslaşan müasir peşə təhsili mərkəzi istifadəyə verilib və cari tədris ilindən fəaliyyətə başlayıb. Bu təhsil kompleksi əsas tədris binasını, 2 emalatxana, yataqxana, idman meydançasını və digər zəruri infrastrukturu özündə ehtiva edir. Artıq Koreyadan 809 adda 4089 sayda ən müasir avadanlıqlar gətirilərək quraşdırılıb. Tədris prosesinin Koreya təhsil standartları əsasında təşkili məqsədilə koreyalı və yerli mütəxəssislər tərəfindən özəl sektor da cəlb edilməklə kurikulum və tədris vəsaitləri hazırlanıb. Mərkəzdə mexanika, elektronika, elektrik mühəndisliyi, sənayedə quraşdırma işləri, tikinti, informasiya texnologiyaları, avtomobil və avtomatlaşdırma olmaqla 8 istiqamət üzrə kadr hazırlanacaq. Mərkəzdə fəaliyyət göstərəcək 26 ixtisaslı mütəxəssis seçilərək Koreyada 3 aylıq təlim keçirməsi təmin edilib. Cari tədris ilində mərkəzdə 400 tələbə təhsil alacaq. Növbəti tədris ilindən etibarən qəbul planının artırılması və qısamüddətli kursların tətbiqi nəticəsində tələbə sayının 1000 nəfərə çatdırılması planlaşdırılır.

## Rəqabətqabiliyyətli kadr hazırlığı

Rəqabətqabiliyyətli kadr hazırlığını həyata keçirəcək bu mərkəz Sumqayıt Texnologiyalar Parkı, "Huawei", "Mitsubishi", "EduMedia", "Subaru", "Optimal Electronics", "Tech Academy", "Honda", "Hyundai", "Helind", "Mazda", "Azedunet", "Toyota Azərbaycan", "Mars Academy", "Turox Aero Technologies" kimi aparıcı sənaye müəssisələri və şirkətlərlə əməkdaşlıq əlaqələri yaradıb və memorandumlar imzalayıb. Yeni qəbul olunan "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, təhsilalanların peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması məqsədilə ümumtəhsil müəssisələrində peşəyönümü xidmətinin təşkil edilməsi nəzərdə tutulub. Bununla əlaqədar məzunların əmək bazarının ehtiyaclarına uyğun hazırlanması və məşğulluğunun təmin edilməsi məqsədilə ümumtəhsil müəssisələrinin X-XI siniflərində peşə təmayüllü siniflər fəaliyyətə başlayıb. İlkin olaraq Bakı, Sumqayıt, Gəncə, Şirvan şəhərlərində, Abşeron, Masallı, Cəlilabad, Xaçmaz, Salyan, Biləsuvar, Şəki, Qusar, Şəmkir və Sabirabad rayonlarında ümumilikdə 20 ümumtəhsil müəssisəsində peşə təmayüllü siniflərin yaradılmasına başlanılıb. Həmin təhsil müəssisələrində iaşə xidməti, kənd təsərrüfatı, inşaat və məişət texnikası sahələri üzrə zəruri infrastruktur və təcrübə sahələri yaradılıb, tədris planları, müvafiq resurslar, dərs modulları hazırlanıb. Peşə təmayülü üzrə təhsil alan şagirdlər təhsili başa vurduqdan sonra tam orta təhsil haqqında sənədlə yanaşı, öyrəndikləri peşə üzrə təhsil sənədi də əldə edəcəklər ki, bu da həmin sənədə əsasən onların əmək fəaliyyətinə başlamasına imkan verəcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Elmar MƏMMƏDYAROV: "Sülh danışıqlarının gələcəyi beynəlxalq birliyin, o cümlədən İslam ümmətinin qətiyyətindən asılıdır"

Sentyabrın 23-də Nyu Yorkda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü üzrə Kontakt Qrupunun dördüncü iclası keçirilib.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Xarici İşlər naziri Elmar Məmmədyarov iclasda çıxış edib. Nazir qeyd edib ki, Ermənistan və Azərbaycan arasında münaqişə baş qaldırandan bəri İƏT Azərbaycana qarşı təcavüzü pisləyərək Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığını təsdiqləyən, o cümlədən Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrini yerinə yetirməyə çağıraraq prinsipial mövqe nümayiş etdirib.

Azərbaycanın haqlı mövqeyi ilə həmrəylik nümayiş etdirdiklərinə və ona dəstək olduqlarına görə İƏT üzv dövlətlərinə minnətdarlığını bildirən nazir deyib: "Ermənistanın Baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də işğal altındakı ərazilərə qanunsuz səfəri zamanı Azərbaycanın ayrılmaz hissəsini - Dağlıq Qarabağı Ermənistan ərazisi kimi elan edən məsuliyyətsiz bəyanatı ilə əlaqədar ciddi narahatlığımızı ifadə edir və bunu qəti şəkildə pisləyirik. Çıxışında N.Paşinyan günahsız insanların beynəlxalq səviyyədə sənədləşdirilmiş qətliamına, bir milyondan çox azərbaycanlı mülki əhalinin etnik təmizləməyə məruz qalmasına və məcburi köçkünlərin öz evlərinə geri qayıtmaq hüquqlarından məhrum olmasına səbəb olan münaqişənin nəticələrini məmnunluqla dilə gətirib. O, həmçinin ATƏT-in Minsk qrupunun himayəsi altında aparılan danışıqların məqsədini "müharibənin... nəticələrini qorumaq" kimi səciyyələndirərək utanmazcasına təhrif edib. Bu addım Ermənistan hökumətinin müxtəlif üzvləri tərəfindən səsləndirilən "bir qarış torpağın" da Azərbaycana qaytarılmaması və "yeni ərazilər üçün yeni müharibə" kimi təxribatçı bəyanatların, habelə etnik təmizləməyə məruz qalmış Azərbaycan ərazilərinə erməni sakinlərinin məskunlaşdırılması və işğal olunmuş ərazilərin təbii sərvətlərini qeyri-qanuni istismar edən Ermənistan tərəfindən aparılan fəaliyyətin davamı kimi atılıb. Onların son təxribatçı bəyanatları və hərəkətləri sübut edir ki, Ermənistanın hazırkı hökuməti beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozulması kimi məsuliyyətsiz yolu davam etdirir".

ATƏT çərçivəsində aparılan vasitəçilik səylərinin bugünədək heç bir nəticə vermədiyini təəssüflə vurğulayan nazir bildirib ki, atəşkəs rejiminə baxmayaraq, Ermənistan Azərbaycanın cəbhə xətti boyunca yerləşən şəhər və kəndlərinə, Azərbaycan hərbçilərinin və mülki şəxslərin öldürülməsi və yaralanması ilə nəticələnən hücumları davam etdirir. İşğalçı ölkə danışıqlar prosesini ləngitmək və həll yolundan qaçmaq üçün hər fürsətdən yararlanır. Beynəlxalq ictimaiyyət Ermənistan hökumətinə münaqişəni uzatmaq üçün hər hansı bir fürsət verməməlidir. Ermənistanın məsuliyyətsiz davranışı fonunda sülh danışıqlarının gələcəyi, dərin narahatlıq doğuran bu məsələ beynəlxalq birliyin, o cümlədən İslam ümmətinin qətiyyətindən asılıdır.

"Bu xüsusda, biz İƏT üzv dövlətlərinin Ermənistanı BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmək üçün effektiv siyasi və iqtisadi tədbirlər görəcəyini gözləyirik. İƏT-in Ermənistanın Azərbaycana qarşı təcavüzü üzrə Kontakt Qrupuna üzv dövlətlər tərəfindən münaqişə ilə bağlı qətnamələrinin icrasının qiymətləndirilməsi və bu istiqamətdə əməli addımların atılması üçün faydalı bir mexanizm olaraq böyük əhəmiyyət verir və bütün üzv dövlətləri qrupun işinə töhfə verməyə çağırırıq", - deyə E.Məmmədyarov bildirib.

# Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşüb

Xarici İşlər naziri Elmar Məmmədyarovun Nyu Yorkda ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü keçirilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar, eləcə də münaqişə zonasındakı vəziyyət və ümumilikdə münaqişənin tənzimlənməsi üzrə həmsədrlərin gələcək fəaliyyət planları və perspektivləri müzakirə edilib.

# Sinxua: "Çin və Azərbaycan əməkdaşlığın möhkəmləndiriləcəyini vəd edirlər"

Çin kütləvi informasiya vasitələri Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərini diqqətdə saxlayıb.




AZƏRTAC xəbər verir ki, ölkənin əsas media qurumlarından milli xəbər agentliyi Sinxua, Çin Mərkəzi Televiziyası (CCTV), rəsmi "Renmin Ribao" qəzeti, digər populyar xəbər saytları mövzu ilə bağlı çin, ingilis və rus dillərində dəfələrlə reportajlar və xəbərlər, geniş məqalələr hazırlayıblar.

Sinxua agentliyinin "Diqqət mərkəzində: Çin və Azərbaycan əməkdaşlığın möhkəmləndiriləcəyini vəd edirlər" başlıqlı reportajında Prezident İlham Əliyevin Çin qanunverici orqanının rəhbəri Li Canşu ilə görüşündə iki ölkə arasında münasibətlərin sürətlə inkişafı ilə bağlı səsləndirdiyi fikirlərə geniş yer verilib.

Reportajda həmçinin nümayəndə heyətinin - Milli Məclisin Sədri Oqtay Əsədov və Baş Nazir Novruz Məmmədov ilə görüşlərindən, Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarətindən, Heydər Əliyev Mərkəzi və xalça muzeyi ilə tanışlığından söz açılır. Çin KİV-in mövzu ilə bağlı materiallarında Li Canşunun sözlərinə istinadla qeyd olunur ki, Çin nümayəndə heyətinin Bakıya səfəri dövlət başçılarının Azərbaycan ilə Çin arasında münasibətlərin inkişafı ilə bağlı əldə etdiyi razılaşmaların icrasına və qanunverici orqanlar arasında əməkdaşlığın dərinləşməsinə dəstək məqsədi daşıyır.

Li Canşunun "Hər bir ölkənin nadir tarixi, milli şəraiti və mədəniyyəti var. Ona görə də fərqli sivilizasiyalar harmoniyalı şəkildə yaşamalı və bir-birindən öyrənməlidir" fikrini vurğulayan Çin KİV yenə Çin rəsmisinə istinadla yazır ki, Ümumçin Xalq Nümayəndələri Yığıncağı Azərbaycanın Milli Məclisi ilə xalqlarımız və dövlətlərimiz arasında əlaqələrin və mübadilənin inkişafı istiqamətində əməkdaşlıqda maraqlıdır.

Materiallarda iki ölkə arasında iqtisadi əlaqələrdən də söz açılaraq bildirilir ki, Li Canşu Baş Nazir Novruz Məmmədov ilə görüşdə Avropa və Asiyanın kəsişməsində yerləşən Azərbaycanın "Bir kəmər, bir yol" boyunca vacib ölkə olduğunu deyib.

Daimi komitənin sədri ölkəsinin Azərbaycan ilə iqtisadi və ticari əməkdaşlığı dərinləşdirməyə, "Bir kəmər, bir yol" strategiyasının icrasında əməkdaşlığa hazır olduğunu deyib.

# Yollar qısalır, xərc azalır, gəlir artır

## Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ilə Azərbaycan regionun mərkəzi qovşağına çevrilib



Əvvəli 1-ci səh.

Əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın tranzit daşımaları sahəsində potensialından daha geniş və səmərəli istifadə edilməsi məqsədilə Prezident İlham Əliyevin 21 oktyabr 2015-ci il tarixli fərmanı ilə yaradılan Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası tərəfindən ölkəmizin ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, yükdaşımaların keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilir. Bu gün artıq mövcud nəqliyyat-tranzit imkanları Azərbaycana iqtisadi dividendlər qazandırmaqdadır.

Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının sədri Şahin Mustafayev vurğulayıb ki, bu ilin birinci yarısında da ölkənin nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib. Bu ilin 6 ayında ölkə ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. Bu dövr ərzində "Şimal-Cənub nəqliyyat dəhlizi" ilə daşınan yüklərin həcmində 63 faiz artım müşahidə olunub, 131 min ton yük daşınıb.

"Şimal-Qərb" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, 6 ayda "Şimal-Qərb nəqliyyat dəhlizi" ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. "Şərq-Qərb nəqliyyat dəhlizi" ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub.

Bu il aprelin 25-27-də Çin Xalq Respublikasının paytaxtı Pekində keçirilən "Bir kəmər, bir yol" II Beynəlxalq Əməkdaşlıq Forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın nəqliyyat-tranzit imkanları və bu istiqamətdə reallaşdırılan layihələri dəyərləndirərkən vurğulamışdır ki, Azərbaycan dövləti müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla yalnız ölkəni mühüm nəqliyyat mərkəzinə çevirməyib, eyni zamanda "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri layihələrində iştirak edən dövlətlər arasında əməkdaşlığa töhfə verib: "Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. "Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir".

Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir. Prezident İlham Əliyev də vurğulayıb ki, bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Qeyd edək ki, Azərbaycan və Çin "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair anlaşma memorandumu imzalayıb və müasir nəqliyyat infrastrukturunun yaradılması ölkəmizin prioritetləri sırasındadır.

Əgər diqqət etsək görərik ki, artıq Azərbaycan nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə edib. Prezident İlham Əliyevin "Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizi"nin uğurlu fəaliyyəti üçün keçirdiyi görüşlər, imzaladığı sazişlər ölkəmizə həm siyasi, həm də iqtisadi dividendlər qazandırır. Ötən il dövlət başçısının Türkmənistana dövlət səfəri çərçivəsində imzalanan 21 sənədin 9-nun məhz nəqliyyat sektoruna aid olması bunu bir daha təsdiqləyir. Onu da əlavə edək ki, Türkmənistanla əldə edilmiş razılaşma digər Orta Asiya ölkələri, Əfqanıstan üçün də real imkanlar yaradacaq. Belə ki, bu ölkələr öz yüklərini Türkmənistandan keçirməklə Azərbaycan ərazisindən "Şərq-Qərb" beynəlxalq dəhlizi ilə dünya bazarlarına çıxarmaq imkanı qazanacaqlar. Artıq Əfqanıstandan yüklər Türkmənistan ərazisindən Azərbaycana, ondan sonra da Qərb istiqamətinə getməyə başlayıb.

Bir sözlə, Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri, həyata keçirdiyi siyasət Azərbaycanın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır. Əminliklə demək olar ki, dövlət başçısının Azərbaycanın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verir.

Yeni iqtisadi şəraitdə sistemli islahatların böyük əzm və qətiyyətlə həyata keçirilməsi qarşıya qoyulmuş hədəfə - Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inamla aparır.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# "Əsrin müqaviləsi" ilə Azərbaycan yeni inkişaf erasına daxil oldu

## Bu saziş Xəzər hövzəsini əməkdaşlıq məkanına çevirdi, regionun enerji xəritəsini dəyişdi

Əvvəli 1-ci səh.

Bu nailiyyətlər müəllifi Ümummilli Lider Heydər Əliyev olan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən, günün tələbləri baxımından daha da inkişaf etdirilən yeni neft-qaz strategiyasından qaynaqlanır.

Xəzərin ölkəmizə məxsus sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi üçün dünyanın tanınmış neft şirkətləri ilə bağlanan saziş Azərbaycanın həyatında tarixi hadisə oldu. Təsadüfi deyil ki, az sonra bu saziş "Əsrin müqaviləsi" adını aldı. Zaman göstərdi ki, bu kontrakt əslində neçə-neçə əsr irəliyə hesablanmışdır. Bu həqiqəti təsdiqləyən faktlardan biri də iki il əvvəl AÇG-nin işlənməsinin müddətinin 2050-ci ilədək uzadılması, başqa sözlə, "Yeni əsrin müqaviləsi"nin imzalanmasıdır.

"Əsrin müqaviləsi"nin 25 illik yubileyinin təntənə ilə qeyd edilməsi təkcə neft-qaz yataqlarının işlənməsi sahəsində qazanılan müvəffəqiyyətlərə deyil, ümumən ölkəmizin ötən dövr ərzində keçdiyi inkişaf və yüksəliş yoluna sanki bir baxış oldu. Yubiley münasibətilə Heydər Əliyev Mərkəzində keçirilən mərasimdəki nitqində Prezident İlham Əliyev müqavilənin imzalandığı dövrü bir daha xatırladı: "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu kontraktın imzalanması da asan məsələ deyildi. Uzun müddət ərzində aparılan danışıqlar nəticə vermirdi. Əlbəttə, hər iki tərəf çalışırdı ki, özü üçün daha əlverişli və məqbul şərtləri əldə etsin. Hesab edirəm ki, biz "Əsrin kontraktı"nın timsalında beynəlxalq əməkdaşlığın müsbət tərəfini görürük. Çünki həm sərmayə qoyan tərəf - investorlar, həm də ki, Azərbaycan dövləti maraqlar balansını taparaq ən məqbul şərtlərlə özləri üçün bu kontraktı imzaladılar. Əgər investorları kontraktların şərtləri qane etməsə, onda əlbəttə ki, heç bir kontraktın imzalanmasından söhbət gedə bilməz. Eyni zamanda Azərbaycan dövlətinin maraqları da tam şəkildə təmin edildi".

Bugünkü yeniləşən, müasirləşən, güclənən, öz vüsətli inkişafı ilə bütün dünyanın diqqətini cəlb edən Azərbaycan 25 il əvvəl məhz həmin kontraktdan güc almağa başladı. Məhz "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmiz yeni inkişaf erasına daxil oldu. Saziş bağlanandan cəmi 3 il sonra - 1997-ci ilin payızında İlkin Neft Layihəsi çərçivəsində hasilata başlandı. 1999-cu ildə Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradıldı. 2005-ci ildə AÇG-nin şah damarı olan "Azəri" yatağının mərkəzi hissəsindən, daha sonra müqavilə sahəsindəki digər yataqlardan neft alındı. 2006-cı ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri tam sistem kimi işə düşdü.

Bütün bunlar Azərbaycana yeni-yeni gəlirlər gətirdi, davamlı inkişafa təminat yaratdı, iqtisadiyyatın şaxələndirilməsini, qeyri-neft sektorunun inkişafını şərtləndirdi. ARDNF-nin məlumatına görə, 2001-ci ildən 2018-ci ilin sonunadək AÇG yataqlar blokundan 143 milyard 366 milyon dollar gəlir əldə edilib. Neftdən gələn vəsait hesabına məcburi köçkünlərin yaşadığı çadır şəhərcikləri ləğv olundu, onların əvəzinə 100-dən çox qəsəbə salındı. Ölkədə 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikildi, yaxud əsaslı təmir edildi. Yeni yollar salındı, su, qaz, işıq problemləri həll olundu, idman qurğuları tikildi. Bunlar görülmüş işlərin yalnız bir hissəsidir.

Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə dövlət başçısı bunu bir daha vurğuladı: "Əsrin kontraktı"nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər. Azərbaycan dövləti 100 milyard dollardan çox gəlir əldə etdi. Yəni bir daha demək istəyirəm ki, bu, dünya təcrübəsində özünə layiqli yer tutan kontraktdır. Çünki həm dövlətin, həm də investorların tələbləri təmin olundu. Eyni zamanda neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı".



Neftlə zəngin olan bir sıra ölkələrdə onun sərvət və xoşbəxtlik deyil, qarşıdurma və faciə gətirdiyi aydın həqiqətdir. Azərbaycan dövlətinin yürütdüyü düzgün və uzaqgörən siyasət nəticəsində neft ölkəmizə sərvət, xeyir-bərəkət gətirdi.

Azərbaycanın neft-qaz layihələri artıq region ölkələrinin həyatına da öz müsbət təsirini göstərib. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin rolu getdikcə artır. Başqa sözlə, "Əsrin müqaviləsi"ndən başlanan yol uğurla davam edir.

Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" kimi nəhəng layihə tamamlanmaq üzrədir. Bu layihənin həyata keçirilməsində ölkəmiz aparıcı qüvvə kimi çıxış edir. Təsadüfi deyil ki, "Cənub qaz dəhlizi" Məşvərət Şurasının toplantıları 2015-ci ildən başlayaraq 5 il dalbadal Bakıda keçirilib. Bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət, müdrik rəhbərlik sayəsində mümkün olub.

"Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən tədbirdə dövlət başçısı neft-qaz sahəsində yüksək ixtisaslı yerli kadr potensialının yarandığını da vurğulamışdır. Bu gün təkcə AÇG layihəsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşıdır. Halbuki müqavilə imzalanandan sonrakı ilk vaxtlarda orada çalışanların 90 faizi əcnəbilər idi. İndi layihənin bir çox aparıcı vəzifələrində də xarici vətəndaşları azərbaycanlı mütəxəssislər əvəz edib.

Dövlət başçısı həmişə olduğu kimi, yenə də Azərbaycan neftçisinin əməyini yüksək qiymətləndirib, onların bacarığını, təcrübəsini yüksək dəyərləndirib: "Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır".

Azərbaycanın inkişafı hərtərəfli və davamlıdır. Çünki Prezident İlham Əliyevin uzaqgörən siyasətinə əsaslanır və xalqın öz dövlətinə, dövlətinin başçısına inamından, dəstəyindən güc alır.

*Flora SADIQLI, "Azərbaycan"*

İŞİMİZ, GÜZƏRANIMIZ

# Torpağın "ağ qızıl" bəhrəsi

## Biləsuvarda pambıq yığımı sürət götürüb

*Əvvəli 1-ci səh.*







Hazırda rayonda pambıq istehsalı və emalı ilə 3 təşkilat - "P-Aqro" MMC, "MKT-Biləsuvar", "Azərpambıq ASK" MMC Biləsuvar PİEZ fəaliyyət göstərir. Torpaq mülkiyyətçiləri, fermerlər ilin əvvəlində onlarla bağladıqları müqavilə əsasında 11 min 354 hektarda pambıq əkmişlər. Həmin müəssisələr əkinçiləri toxum, texnika, mineral gübrələr, ziyanvericilərə qarşı mübarizə aparmaq üçün dərman preparatları və maddi vəsaitlə təmin etmişdir. Bunlarla bərabər, həmin müəssisələrin aqronomları, digər mütəxəssisləri şum, əkin, becərmə dövründə sahibkarlara lazımi tövsiyə və məsləhətlər vermişlər. Vegetasiya dövründə sahələrdə 4-5 dəfə kompleks becərmə aparılmışdır.

İndi yığım dövrüdür. Əsas məsələ yetişdirilmiş məhsulu vaxtında və itkisiz toplayıb müqavilə bağlanılan cəmiyyətə, təşkilata təhvil verməkdir. Ona görə də hər bir mülkiyyətçi gün çıxandan gün batana kimi pambıq yığanlarla birlikdə tarlalarda olur.

"P-Aqro" MMC üçüncü ildir ki, fəaliyyət göstərir. 2017 və 2018-ci təsərrüfat illərini yaxşı nəticələrlə başa vurub. Cari ilin əvvəlində 423 nəfər mülkiyyətçi ilə müqavilə bağlayıb. 2 min 150 hektar sahəni əkib-becərmək üçün onlara kifayət qədər toxum və gübrə, 1 milyon 164 min manat vermişdir. Cəmiyyətin baş aqronomu Rafiq Əzizovla birlikdə sahibkar Xaləddin Kərimovla söhbət edərkən dedi ki, 4,5 hektar sahədə pambıq əkmişik. Hamısı da "Bəyaz Altun-440" sortudur. Sentyabr ayının 14-dən yığıma başlamışıq. Sahədə pambıq yığan Atlaz Məmmədova, Zürələ Qiyasova, Xumar Zülfüqarova, Təhminə Əlişova və Qənimət Qurbanovanın adlnı çəkib dedi ki, qoçaq qızlardır. Sağ olsunlar. Hərəsi gündə qapana 120-130 kiloqram məhsul qoyur. Yaxın ərazidəki digər sahələr isə maşınla yığım üçün hazırlanırdı.

"P-Aqro" MMC-nin tədarük məntəqəsində mövsümə hazırlıq işləri də başa çatdırılıb. Qapan-tərəzi, taya yerləri, transportyorlar, işıqlandırma sistemi təmir edilib, yanğına qarşı mübarizə tədbirləri görülüb.

"P-Aqro"MMC və digər şirkətlərlə müqavilə bağlayan torpaq mülkiyyətçiləri cari ildə ümumi məhsulun 80-90 faizini maşınlarla yığmağı qarşıya məqsəd qoymuşlar. Artıq maşınla yığılacağı nəzərdə tutulan 1200 hektarın 900 hektarında defalyasiya işləri başa çatdırılmışdır. Həmin sahələrin məhsulunu yığmaq üçün cəmiyyətin 8 kombaynı, kifayət qədər nəqliyyat traktoru və lafeti var. Kombaynçılardan Zəfər İsmayılov, Murad Muradov, Ziyafət Vəliyev, Sərəsdan Ağayev və başqaları kombaynla sahələrə çıxmaq üçün işarə gözləyirlər.

"MKT-Biləsuvar" filialı keçmiş pambıq zavodunun bazasında yaradılıb. Müəssisədə son illər kifayət qədər iş görülüb. İstər pambığın yetişdirilməsi, istərsə də emalı üçün xeyli texnika alınıb gətirilmiş, köməkçi talvarlar tikilmişdir. Müəssisənin şöbə rəisi Hikmət Kərimov dedi ki, filial cari ildə 4 min 100 nəfər mülkiyyətçi ilə müqavilə bağlayıb. 900 nəfər torpaq mülkiyyətçisinə və sahibkara pambığın əkilməsi və becərilməsi üçün 1114 ton mineral gübrə və 3 milyon 111 min manat pul verilib. Keçən il müəssisə üzrə 3 min 350 hektar sahənin hər hektarından 29,7 sentner məhsul əldə olunmuşdur. Mütəxəssislər cari ildə də yaxşı məhsul gözlənildiyini deyirlər. Mülkiyyətçilərdən Şahlar Babazadə, Fəxrəddin Quliyev, Elxan Məmmədov, Zahid Mirzəzadə aqrotexniki qulluq sayəsində hər hektardan orta hesabla 45-50 sentner "ağ qızıl" əldə etmək əzmindədirlər.

Öyrəndik ki, müəssisə artıq 152 ton məhsul qəbul etmişdir. Sahələrin çoxu arağac olduğundan burada defalyasiya erkən başlanmış və bu hesaba digərlərinə nisbətən maşınlar sahələrə tez çıxarılmışdır. İndiyəcən tədarük edilən məhsulun 107 tonu maşınlarla toplanmışdır. "MKT-Biləsuvar" filialında da məhsulun 90 faizinin maşınlarla toplanması planlaşdırılıb. Bunun üçün hər bir şərait var. Rayondakı "Azərpambıq ASK" MMC Biləsuvar müəssisəsində də pambıq yığımı gündən-günə artır. Hamı da istəyir ki, yetişdirdiyi məhsulu tez və itkisiz yığsın.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Azərbaycanda köçəri arıçılığa son qoyulmalıdır

Ölkəmizdə arıçılıq tarixi ənənəyə malik sahələrdən biri kimi inkişaf etdirilir. Kənd Təsərrüfatı Nazirliyi bu sahənin ciddi şəkildə dəstəklənməsinə xüsusi maraq göstərir.



2015-ci ildə nazirliyin nəzdində ilk dəfə olaraq Arıçılıq Mərkəzi yaradılıb. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi ilə Mərkəzin çox yaxşı maddi-texniki bazası formalaşdırılıb. Hazırda arıçılığın inkişafı ilə bağlı qarşımızda duran ən vacib məsələlərdən biri də bu sahənin yem təminatının formalaşdırılması ilə bağlıdır. Nazirlik olaraq biz təklif edirik ki, Azərbaycanda köçəri arıçılığa son qoyulmalıdır. Yəni arıxanalar bilavasitə yemin yanına aparılmalı deyil. Əksinə, yem arıxananın yanına gətirilməlidir.

Bu sözləri Kənd Təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov AZƏRTAC-a deyib.

Hazırda dünyada ən çox istifadə olunan yem bitkilərini Azərbaycanda da asanlıqla yetişdirməyin mümkün olduğunu vurğulayan nazir müavini bildirib: "Artıq Arıçılıq Mərkəzində pilot olaraq lavanda və rozmarin bitkiləri yetişdirilir. Arıçılar mərkəzlə əlaqə saxlayaraq sahənin inkişaf etdirilməsində maraqlı olmalıdırlar. Çünki Azərbaycanın bitki aləminin zənginliyinə baxmayaraq, arıçılığın davamlı inkişafına nail olmaq üçün bu sahənin müvafiq yem təminatı olmalıdır. Hesab edirik ki, növbəti illərdə arıçılıq Azərbaycanda ən vacib və gəlirli sahələrdən birinə çevriləcək və aqrar sahənin inkişafına öz töhfəsini verəcək".

# Regionlarda qadın sahibkarlar maarifləndirilir

Regionlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda maraqlı olan qadınların maarifləndirilməsi məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən birgə tədbirlər həyata keçirilir.



KOBİA-dan AZƏRTAC-a bildirilib ki, bu çərçivədə avqust və sentyabr aylarında Qazax, Ağstafa, Samux və Naftalan rayonlarında gənc potensial qadın sahibkarlar üçün müxtəlif mövzularda təlimlər təşkil olunub. "Öz biznesinə başla", "Biznes-planın hazırlanması", "Potensial gənc qadın sahibkarların İKT bacarıqları" mövzularında təşkil olunmuş təlimlərdə 100-ə yaxın iştirakçı biznes planının, elektron maliyyə hesabatlarının hazırlanması, İKT üzrə bilik və bacarıqlar, sahibkarlıq sahəsində qanunvericilik, biznes üçün dövlət dəstəyi mexanizmləri barədə məlumatlandırılıb.

Təlimlər zamanı potensial qadın sahibkarlar arasında sorğu da keçirilib. Sorğunun nəticələri göstərir ki, regionlarda qadınların əmək vərdişlərinin inkişaf etdirilməsinə ehtiyac var və bu ehtiyac nəzərə alınaraq belə təlimlər mütəmadi olaraq təşkil ediləcək.

Təlimləri uğurla başa vuran qadınlara sertifikatlar təqdim olunub.

Növbəti mərhələdə potensial gənc qadın sahibkarların istehsal müəssisələrinə təcrübə səfərləri təşkil olunacaq və onların məhsullarından ibarət sərgilər keçiriləcək.

## Tütün dərimi sürətlə davam edir



"Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"na əsasən, respublikamızın bütün bölgələrində olduğu kimi, Qazax rayonunda da tütünçülüyün inkişaf etdirilməsi istiqamətində məqsədyönlü işlər görülür.

Artıq dördüncü ildir ki, Qazax rayonunda tütün becərilir. Kənd təsərrüfatında iqtisadi cəhətdən gəlirli sahə hesab edilən tütünçülüyün inkişaf etdirilməsi rayonda yeni iş yerlərinin açılması baxımından da əhəmiyyətlidir.

AZƏRTAC xəbər verir ki, cari ildə Qazax rayonunda 65 hektar sahədə tütün əkilib.

Əvvəlki illərdə yüksək nəticə əldə edən tütünçülər bu il də daha çox məhsul götürmək üçün bütün aqrotexniki tədbirləri yerinə yetiriblər. Artıq bir neçə aydır ki, təsərrüfatlarda tütün dərimi davam edir. Tütün dəriminin vaxtında və itkisiz başa çatdırılması üçün dərilmiş məhsul əkin sahələrinin yaxınlığında hazırlanmış xüsusi yerlərdə ipə düzülərək qurudulur. Bugünədək 421 ton yaş tütün tədarük edilib. 33 tondan çox qurudulmuş tütün isə "İlham-M" MMC-yə təhvil verilib. Hazırda tütün dərimi sürətlə davam edir.

## Kartof toxumları tədarük edilir



Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun bölgə təcrübə stansiyalarında və dayaq məntəqələrində yüksək reproduksiyalı toxum yetişdirilir. İnstitutun Şəmkir Dayaq Məntəqəsində artıq bir neçə gündür ki, toxumluq kartofun yığımına başlanıb.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Elmar Allahverdiyev və Şəmkir Dayaq Məntəqəsinin rəhbəri İsaq Həsənovun iştirakı ilə aparılan tədarük zamanı elit reproduksiyalı "Telman" sortunun dəmyə ərazilərdə daha yüksək nəticə göstərdiyi məlum olub. Yığım zamanı superelit və elit reproduksiyalı toxum texnoloji yolla çıxarılaraq çeşidlənir, saxlama qaydalarına uyğun olaraq anbara yığılır. İsaq Həsənov bildirib ki, əldə olunan toxumlar bölgü əsasında respublikada kartofçuluqla məşğul olan fermer təsərrüfatlarına veriləcək. Məntəqədə "Əmiri" sortunun da toxumçuluğu təşkil edilib.

Qeyd edək ki, "Telman" sortu 2008-ci ildə rayonlaşdırılaraq dövlət reyestrinə daxil edilib, dəmyə şəraiti üçün əlverişlidir, xəstəlik və zərərvericilərə qarşı dözümlüdür. Respublikanın qərb və Şirvan bölgəsinin dağlıq ərazilərində geniş yayılıb. Dəmyə şəraitində hektardan məhsuldarlığı 15 tondur, suvarma şəraitində məhsuldarlığı iki dəfə artır.

Sortun müəllifi, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun əməkdaşı, mərhum Zeynəddin Əmirovdur.

# İndi kəndlinin hər dəqiqəsi qiymətlidir







İndi kəndlinin bir dəqiqə belə işsiz dayanmadığı, az qala hər anının qiymətli olduğu vaxtdır. Taxıl yığımı başa çatsa da, toplanmış məhsulu itkisiz tədarük etmək, keyfiyyətinə zərər gətirmədən anbarlara yığmaq, yaxud alıcıya çatdırmaq çox vacibdir.

Pambıqçılar da xeyli vaxtdır tarlaya çıxıblar. Yığım mütəşəkkil surətdə davam edir. Kəndli məhsulunun bir qozasını belə yerdə qoymağa qıymır. Çünki onu böyük zəhmətlə yetişdirib. Bu fəsildə emalçıların da işi aşıb-daşır.

Heyvandarın isə öz qayğıları var. O, inək-camışına, qoyun-keçisinə indi həm yaxşı qulluq etməli, həm də qarşıdakı payız-qış aylarının bol yem ehtiyatını toplamalıdır.

***"Azərbaycan"***
***Foto Ağaəli MƏMMƏDOVUNDUR***



## 14 min ton pambıq istehsalı proqnozlaşdırılır



Salyanlı pambıqçılar yetişdirdikləri məhsulu qısa müddətdə toplamaq üçün var qüvvələrini sərf edirlər. Onların gərgin əməyi nəticəsində indiyədək sahələrdən 1106 ton məhsul toplanaraq qəbul məntəqələrinə göndərilib. Hər gün sahələrdən xeyli məhsul yığılır.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu il salyanlı pambıqçılar 5 min 788 hektar sahədə pambıq əkiblər. Şirkətlərlə müqavilə bağlayaraq məhsul yetişdirən mülkiyyətçilər göstərilən hərtərəfli kömək nəticəsində cari təsərrüfat ilində sahələrdən bol məhsul yetişdiriblər. Qısa müddətdə sahələrdən 1106 ton məhsul yığılıb. Bunun da 591,7 tonu maşınların köməyi ilə toplanıb.

Salyanda pambıq yığımında yüksək məhsuldarlığa nail olan fermerlər çoxdur. Onlardan biri də Sarvan kənd sakini, fermer Alim Həsənovdur. Uzun illərdir pambıq əkini ilə məşğul olan fermer ötən il becərdiyi 6 hektar sahənin hər hektarından 28 sentner məhsul götürməklə 168 ton pambıq tədarük edib.

"Cari ildə 10 hektar sahədə pambıq əkmişdim. Bu il də məhsulum boldur. İndiyədək 8 hektar sahədən əl ilə 24 ton pambıq toplamışıq. Hələ məhsul çoxdur. Daha 250 tondan çox məhsul yığacağıma əminəm", - deyə A.Həsənov bildirib.

Məhsul istehsalçısı onu da qeyd edib ki, son illər dövlət tərəfindən pambıqçılığın inkişafına göstərilən hərtərəfli kömək, verilən əlavə subsidiyalar digər fermerlər kimi, onun da bu sahəyə marağını artırıb. Fermer əkinçilərə göstərilən dəstəkdən yararlanaraq gələcəkdə pambıq sahəsini daha da genişləndirmək niyyətindədir.

Qeyd edək ki, bu il rayonda 14 min ton "ağ qızıl" yığımı proqnozlaşdırılır.

## Gələn ilin məhsulu üçün payızlıq dənlilərin əkininə başlanılıb



Şəki rayonunun təsərrüfatlarında 2020-ci ilin məhsulu üçün payızlıq dənlilərin əkininə başlanılıb. Kampaniyanın ilk günlərində rayonun Suçma, Cumakənd, Baş Layısqı, Baş Göynük kəndlərinin ərazilərində 320 hektar sahədə yaşıl yem üçün arpa əkilib. Cari mövsümdə rayonda 65 min hektar sahədə payızlıq dənlilərin əkini proqnozlaşdırılır.

Bu barədə AZƏRTAC-a Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor müavini Nurəddin İbrahimov məlumat verib.

Qurum rəsmisi bildirib ki, payızlıqların əkini üçün indiyədək təsərrüfatlarda 29 min hektar sahədə şum qaldırılıb. Səpin üçün 15 min ton arpa və buğda toxumu tələb olunsa da, toxumçuluq təsərrüfatları və fermerlər tərəfindən 17 min ton yüksək reproduksiyalı toxum fondu yaradılıb. Fermerlərin mineral gübrələrə olan ehtiyacları da tam şəkildə ödəniləcək. Bunun üçün lazımi qədər mineral gübrə tədarük olunub. Əkin kampaniyasına 175 ədəd şum traktoru, 90 ədəd toxumsəpən aqreqat və digər texnikalar cəlb edilib.



# TURİZM



● Gəzməli, görməli yerlərimiz

# Əzəmətli dağlar, yaşıl meşələr, buz bulaqlar...

**Qeyri-neft sektorunun inkişafında prioritet istiqamətlərdən biri də turizmdir. Ölkəmizin son illərdəki sosial-iqtisadi inkişafı, respublikamızda keçirilən bir sıra mötəbər tədbirlər xarici ölkə vətəndaşlarında Azərbaycana olan marağı xeyli artırmışdır. Elə ölkəmizdə turizmin sürətli inkişafı da məhz bu amillərlə bağlıdır.**









Havalar çox isti keçəndə insanlar dincəlmək üçün ən çox dağ rayonlarına üz tuturlar. Belə bir dövrdə Daşkəsən rayonu da istər təbiəti, istərsə də tarixi abidələri ilə turistləri özünə cəlb edir. Əzəmətli dağları, yaşıl meşələri, buz bulaqları, səfalı yaylaqları ilə turistlərin daim marağında olan bu rayon sözün əsl mənasında özünün inkişaf dövrünü yaşayır. Son illər burada həyata keçirilən infrastruktur layihələri, demək olar ki, əvvəllər mövcud olan problemləri aradan qaldırmış, nəinki rayon sakinlərinin, eləcə də bura istirahət etməyə gələn xarici turistlərin rahatlığını təmin etmişdir.

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə olan bu rayonda aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən saysız-hesabsız kurqanlar onu deməyə əsas verir ki, bu ərazilər ta qədimlərdən yaylaq kimi yerli əhali tərəfindən istifadə edilib. Bundan başqa, rayonun qiymətli yataqlarla zəngin olması da insanların daim maraq dairəsində olub. Məhz bu məqsədlə Sovetlər birliyi dövründə yeraltı sərvətlərin istismarı üçün xeyli iş aparılmışdır. İşlər indi də davam etdirilir. Lakin bütün bu sərvətlərlə yanaşı, Daşkəsənin bir sərvəti də var ki, o da şəfaverici yaylaqlarıdır. Onların içərisində turistlərin ən çox maraqlandıqları Xoşbulaq yaylağıdır. İstər yerli, istərsə də xarici qonaqlar bu yaylaqda dincəlmək, istirahət etmək üçün yüz kilometrlərlə yol qət edirlər. Turistlər burada yaxşı istirahət etməklə yanaşı, həm də Tunc dövrünə aid olan Daştəpə qalasına, "Çoban daşı"na, Molla Abdulla bulağına ekskursiyalara gedirlər. Ümumiyyətlə, rayon ərazisində çoxlu sayda tarixi abidə var. Onlardan Əmirvar kəndindəki Yastı qayanı, Ləzgi qayasını, Qara inək mağarasını, Yal yurdu qalasını, Göycəlilər yurdu qalasını, eləcə də Dərdər qalasını misal göstərmək olar.

Qabaqtəpə zonası da turizm üçün çox əlverişlidir. Burada 800 kvadratmetr ərazisi olan Alban məbədi kimi respublika əhəmiyyətli tarixi memarlıq abidəsi, Qabaqtəpə kəndindən 5 kilometr aralıda yerləşən Gəlinqaya qonaqların zövqünü öxşayır.

Dünyada məşhur olan Qabaqtəpə boz arı cinsi də məhz bu yerlərin adı ilə bağlıdır. Dağlara söykənən bu kənd qərb tərəfdən meşələrlə əhatə olunmuşdur. Rayon mərkəzindən Qabaqtəpə kəndi ərazisinədək olan yerdə çoxlu sayda tarixi qədim olan körpülər, yaşayış məskənləri var.

Rayonun Tapan kəndində Qudur bulağı, Alaxançallı kəndində Turşsu, Qaraqullar kəndində Ağ bulaq, Zəylik kəndində Düz yal, Bayan kəndində ecaskar dəmiryol körpüləri və keçidləri, Çılçirəvənd məbədi, monastr, Gurbulaq kəndi ərazisində Dikdaş, Ərkinaz qalaları, Zağalı kəndində dünya əhəmiyyətli kurqanlar və daş qəbirlər, Zəylik kəndində Alban məbədi, Əhmədli kəndində türbə, Dardərə kəndində Çalağan qalası, Dəstəfur kəndində Gəncə çayı üzərində salınmış qədim körpü və tarixi abidələr rayona səfər edən hər bir turistdə maraq doğurur. Ümumiyyətlə, bu gün rayon ərazisində yerli və ölkə əhəmiyyətli 71 tarixi və mədəniyyət abidəsi var. 46 abidə isə AMEA-nın Elmi-Arxeologiya Tədqiqat İnstitutu tərəfindən qeydiyyata alınmışdır.

Rayonun təbii iqlim şəraiti və zəngin tarixi abidələri almaniyalı turistləri daha çox maraqlandırır. Bunu nəzərə alan Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin nümayəndələri (GİZ) Daşkəsəndə olmuş, "Gəncə-Qazax iqtisadi rayonunda yerli və regional inkişafa dəstək" layihəsi çərçivəsində müzakirələr aparmışlar.

Turizmin inkişafı ilə bağlı elmi əsaslarla işlənmiş və proqram xarakterli "Yeni Daşkəsən" layihəsində rayonun turizm potensialından səmərəli istifadə edilməsi prioritet məsələ kimi qarşıya qoyulmuş və bir sıra işlər həyata keçirilmişdir. Yol infrastrukturunun yenilənməsi istiqamətində xeyli iş görülmüşdür. Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun yenidən qurulmasında son tamamlama işləri başa çatmaq üzrədir. Gəncə-Daşkəsən-Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi ilə bağlı yenidənqurma işlərinə isə bu yaxınlarda start verilmişdir.

Daşkəsən rayonunun özünəməxsus torpaq-bitki örtüyü və heyvanat aləmi var. Rayon ərazisi dağlarla əhatə olunduğundan bölgəyə xüsusi gözəllik verir. Yollar boyu uzanan qalın meşələr insan sağlamlığı üçün xüsusi əhəmiyyət daşıyır. Mənbəyini Qoşqar, Gəncə, Şəmkir və Ballıca çaylarından, habelə kiçik dağ çaylarından götürən sututarlar qızılxallı forel balıqları ilə zəngindir. Turizm üçün xarakterik olan Zivlən və Astaf kəndlərindəki eyni adlı iki göl isə qonaqların daha çox əyləndikləri məkandır. Bundan başqa, Gəncə-Daşkəsən avtomobil yolunun dağ zirvələrinə doğru yüksələn xətlə sıldırımlı ərazilərdən keçməsi, zirvələrdən üfüqlərə və dərələrə açılan ürəkaçan mənzərələr, "Daşkəsən Filizsaflaşdırma" ASC-yə məxsus asma kanat yolu rayona gələnlərdə xoş təəssürat oyadır.

Rayonda kənd turizmi, yaşıl turizm pərakəndə şəkildə inkişaf etmişdir. Lakin ekoturizm, dağ turizmi, alpinizm turizmi, aqroturizm növlərini inkişaf etdirmək üçün rayonda əlverişli şərait mövcuddur. Nədənsə turizmin bu sahələrinin inkişaf etdirilməsinə investorların marağı çox azdır. Söz yox ki, həmin sahələrə vəsait yatırılması həm rayon iqtisadiyyatına, həm də investorlara gəlir gətirə bilər. Bütün bunlara baxmayaraq, həmin sahələrin inkişaf etdirilməsi rayon rəhbərliyinin maraq dairəsindədir.

Daşkəsəndə və onun yaylaqlarında dincələnlərin sayı ildən-ilə artır. Buna səbəb bir tərəfdən havaların isti keçməsidirsə, digər tərəfdən insanların ekoloji cəhətdən təmiz ərzaqla zəngin olan bölgələrə marağının artmasıdır. İndi bütün kəndlərdə yerli və xarici turistlərə rast gəlmək mümkündür. Ən çox maraq isə əvvəllər olduğu kimi, Xoşbulaq yaylağınadır. Bu il də evlər bir neçə ay əvvəl kirayələndiyindən ev tapmaq bir qədər çətinlik yaradırdı. Bakıda yaşayan İsrafil Cəfərov söhbət zamanı dedi ki, hər il 5 nəfər ailə üzvü ilə burada dincəlir. Qiymətlər o qədər də baha deyil. Ən əsası isə, ailə üzvləri ekoloji çəhətdən təmiz kənd məhsulları ilə qidalanır. Hər gün səhər qaldığı evin sahibindən çox ucuz qiymətə bal, qaymaq, sacda bişirilmiş yuxa alır. Bəzi hallarda nahar yeməyini elə ev sahibi hazırlayır. Təzə ətdən bişirilmiş yemək və yaxud kənd çolpası ailə üzvləri tərəfindən razılıqla qarşılanır.

Qara Seyidov isə Gəncədən gəlib. Deyir ki, Xoşbulaq yaylağı nəvələrinə sanki şəfa verir. Buranın qəribə iqlimi var. Bir də görürsən ki, gün çıxdı. 5 dəqiqə keçməmiş yağış yağdı. Ümumiyyətlə, axşamlar o qədər sərin olur ki, qızmar şəhər həyatından sonra bu, insana həzz verir.

Ölkə rəhbərinin diqqət və qayğısı ilə Xoşbulaq yaylağı son illər tanınmaz dərəcədə dəyişmişdir. Gəncədən yaylağa kimi asfalt yol çəkilmiş, bir sıra infrastruktur layihələri həyata keçirilmişdir. Turistlərin əraziyə ekskursiyaları üçün bütün imkanlar yaradılmışdır. Yaylaqda bazar, ət və ərzaq mağazaları fəaliyyət göstərir. 2014-cü ildə Xoşbulaqda Gənclərin Təlim və İnkişaf Mərkəzi istifadəyə verilmişdir ki, burada istirahət edən turistlər həmin mərkəzin xidmətlərindən səmərəli şəkildə istifadə edirlər. Bu ərazidə yerləşən buz bulaqlara, eləcə də şəlaləyə edilən ekskursiyalar da turistlərdə xoş ovqat yaradır.

Oğuz sakini Fəxrəddin Əliyev isə hər il Daşkəsənin Dəstəfur kəndində dincəlir. Söhbət zamanı Fəxrəddin dedi ki, bura onun ata-baba yurdudur. 30 ildən artıqdır ki, Bakıda yaşayır. Ancaq rayonun təmiz havası onu və ailə üzvlərini tez-tez çəkib Xoşbulağa gətirir. Bütün yayı burada qalır, vaxtilə uşaqlığı keçən yerləri atla gəzərək xoş anlar yaşayır.

Daşkəsənlə Xoşbulaq yaylağına dincəlməyə gələnlər arasında xarici turistlər də var. Xüsusilə Türkiyədən, Almaniyadan, eləcə də Rusiyadan çoxlu sayda xarici turistlə görüşdük. Onlar bu yerlərin əvəzolunmaz olduğunu söylədilər. Türkiyəli Osman Qılıc dedi ki, onun vətənində də dincəlməli gözəl yerlər çoxdur. Lakin insanın görmədiyi yerlərdə də dincəlməsi maraqlıdır. O, Daşkəsəndə keçirdiyi 3 günlük istirahətdən böyük zövq aldığını bildirdi və gələn il Xoşbulaqda yenidən dincəlmək arzusunda olduğunu dedi.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

● Dövlət qayğısı

**Cari ilin yanvar-avqust aylarında Azərbaycana səfər edən xarici ölkə vətəndaşlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,3 faiz artaraq 2,1 milyona çatıb. Keçən ilin statistikası göstərdi ki, turistlər Azərbaycanda olduqları müddətdə 2,6 milyard dollardan çox pul xərcləyiblər. Azərbaycana gələn əcnəbilərin sayında davamlı artım nəzərə çarpır.**



# Azərbaycana gələn turistlərin sayı artdıqca gəlirlər də çoxalır



Belə ki, 2016-cı ildə 2,25 milyon, 2017-ci ildə 2,7 milyon, 2018-ci ildə isə 2,85 milyon əcnəbi ölkəmizə səfər edib. Ehtimala görə, gələn turistlərin sayı 2019-cu ildə 3 milyon nəfəri ötəcək. 2018-ci ildə turizmdən gəlir 2,634 milyard dollar, xərci 2,284 milyard dollar, müsbət fərqi 350 milyon dollar təşkil edib. Faktlardan göründüyü kimi, turizm Azərbaycanda valyuta gətirən əsas sahələrdən birinə çevrilib.

Ölkəmizə gələn turistlərin ildən-ilə çoxalması bu sahədə yaradılan əlavə dəyərin həcminin artmasına səbəb olur. 2014-cü ildə turizm sektorunda 2,4 milyard manatlıq əlavə dəyər yaradılıb. Bu göstərici 2018-ci ildə 3,46 milyard manata yüksəlib. Turizmin inkişafı həm də əhalinin məşğulluğunun artmasına töhfə verib. 2014-cü ildə bu sektorda 42 min insan çalışırdısa, ötən ilədək onların sayı 53,2 mini ötüb. Azərbaycan Turizm Assosiasiyasının müşaviri Müzəffər Ağakərimov jurnalistlərə müsahibəsində bildirib ki, turizm sahəsi tezliklə neft-qaz sektorundan sonra iqtisadiyyatın əsas aparıcı qüvvəsinə çevriləcək.

Bunun başlıca səbəbi Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi hərtərəfli dəstəyidir. Yeni turizm növlərinin inkişafına, dünya standartlarına uyğun hotellərin inşasına dövlət başçısı tərəfindən xüsusi diqqət yetirilir. Turist səfərlərinin asanlaşdırılması məqsədilə viza alınması sadələşdirilib. Azərbaycanın beynəlxalq tədbirlərə, simpozium və konfranslara evsahibliyi etməsi, beynəlxalq idman yarışları, musiqi festivalları, mədəniyyət tədbirləri ölkəmizdə turizmin inkişafına müsbət təsir göstərmişdir. Ekspertlərin fikrincə, növbəti illərdə Azərbaycana gələn turistlərin sayının nəzərəçarpacaq dərəcədə artacağı ehtimal olunur. Hətta strateji yol xəritəsində göstərildiyi kimi, Azərbaycan 2025-ci ildə dünyanın 20 ən yaxşı inkişaf edən turizm ölkəsindən birinə çevriləcək.

Ölkəmizdə turizm infrastrukturu və müxtəlif turizm növləri inkişaf edir, eyni zamanda, xalqımızın qonaqpərvərliyi turist səfərlərinə müsbət təsir göstərir. Azərbaycan həm təbiətinə, həm coğrafi mövqeyinə, həm də sabitliyinə görə unikal ölkədir. Turistlər xüsusilə də ailələri ilə o yerlərə üz tuturlar ki, orada sabitlik, insanlara münasibət yüksək səviyyədə olsun.

Azərbaycanda turizm şirkətlərinin və onların növlərinin sayı ildən-ilə artır. Bildiyimiz kimi, əvvəllər ölkəmizdə turizm növləri az idi. Sevindirici haldır ki, bu azlıq içərisində qış turizmi indi populyarlığı ilə seçilir. Tufandağda, Şahdağda, Qusarda və başqa ərazilərdə qış turizminin inkişafı buna bariz nümunədir. Bundan başqa, ölkəmizdə çimərlik turizmi ilə yanaşı, kənd turizmi də inkişaf edir. Kənd turizminin məmnunluq doğuran cəhətlərindən biri də odur ki, turistlərin bir çoxu Şəkidə, Qusarda, Qubada, Qəbələdə, Lənkəranda, Gədəbəydə fərdi evlərdə qalmağa meyillidirlər. Bu da yerli sakinlərin gəlirlərinin artmasına səbəb olur.

Azərbaycanda sağlamlıq turizmi də gündəmdədir. Qalaaltı, Duzdağ, Naftalanda günün tələblərinə cavab verən müasir hotellər fəaliyyət göstərir. Gələcəkdə bu hotellərin sayı arta bilər. Masallıda və Lənkəranda istisu mənbələri yaxınlığında yeni hotellər tikilib. Bu da sağlamlıq turizminin inkişafı üçün daha geniş imkanlar yaradır.

Turizmin çoxşaxəli inkişafı dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələnlərin sayını çoxaldan əsas amillərdəndir. Odur ki, bu sahəyə diqqət daha da artırılmalıdır. Sağlamlıq məqsədilə respublikamıza gələn turistlər iki-üç gün deyil, ən azı bir kurs müalicə məqsədilə 14 gün qala bilsələr, ölkəyə daha çox valyuta daxil olar.

Turizmin inkişafı həm Bakı şəhərində, həm də regionlarda yeni iş yerlərinin açılması deməkdir. Dövlət zərurət duyulan yerlərdə yol, su, enerji infrastrukturunu yaxşılaşdırır. Yollar çəkilir, su xətləri yenilənir, elektriklə təminat yaxşılaşır. Bütün bunların nəticəsidir ki, keçmiş Sovetlər birliyi ərazisində turizmin inkişafı baxımından Azərbaycan öncül yerdədir.

***Rəhman SALMANLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

● Dünya turizmi

# Ən çox səfər edilən və pul xərclənən şəhərlər

**"Mastercard" şirkəti ötən il turistlərin dünyanın ən çox səfər etdikləri və pul xərclədikləri şəhərlərin reytinqlərini ("Global Destination Gittes Index") dərc edib.**

Reytinqlər tərtib edilərkən turistlərin müəyyən şəhərdə ən azı bir gün gecələməsi nəzərə alınıb.

Banqkok səyahət həvəskarlarının ən çox səfər etdikləri yer olsa da, çox pul xərclənən şəhərlərin siyahısında üçüncü olub. Bu sırada birinci yeri Dubay (30,8 milyard dollar) tutub.

Turistlərin 2018-ci ildə ən çox səfər etdikləri şəhərlərin ilk onluğu belədir: Banqkok (Tailand) - 22,78 milyon nəfər, Paris (Fransa) - 19,1 milyon, London (Böyük Britaniya) - 19,09 milyon, Dubay (Birləşmiş Ərəb Əmirlikləri) - 15,93 milyon, Sinqapur (Sinqapur) - 14,67 milyon, Kuala-Lumpur (Malayziya) - 13,79 milyon, Nyu York (ABŞ) - 13,6 milyon, İstanbul (Türkiyə) - 13,4 milyon, Tokio (Yaponiya) - 12,93 milyon və Antalya (Türkiyə) - 12,41 milyon nəfər.

Turistlərin 2018-ci ildə daha çox pul xərclədikləri şəhərlərin onluğu isə belə sıralanıb:

Dubay - 30,82, Məkkə (Səudiyyə Ərəbistanı) - 20,09 milyard dollar, Banqkok - 20,03, Sinqapur - 16,56, London - 16,47, Nyu York - 16,43, Paris - 14,06, Tokio - 13,77, Palma-de-Malyorka (İspaniya) - 12,69, Phuket (Tailand) - 12,01 milyard dollar.



● Xəbər

# Azərbaycan Turizm Agentlikləri Assosiasiyası Ümumdünya Turizm Təşkilatının assosiativ üzvlüyünə namizəd qəbul edilib

**Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən BMT-nin Ümumdünya Turizm Təşkilatının Baş Assambleyasının 23-cü sessiyası keçirilmişdir.**

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) İctimaiyyətlə əlaqələr şöbəsindən redaksiyaya daxil olan məlumatda bildirilir ki, 65 turizm naziri və nazir müavini, 31 dövlət katibi və 1100-dən çox şəxsin iştirak etdiyi bu tədbirdə turizmin təhsildə və yeni iş yerlərinin açılmasında rolu, beynəlxalq turizmi davamlı etməkdə innovasiya və sahibkarlığın əhəmiyyəti kimi mövzular müzakirə olunmuşdur.

Sessiyada ölkəmizi respublika Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Tədbirdə ATAA təşkilata assosiativ üzvlüyə namizəd qəbul edilmişdir.

***"Azərbaycan"***

# Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli bağlanış mərasimi olub

Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının sentyabrın 22-də təntənəli bağlanış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan, Ukrayna və Bolqarıstanın qrup hərəkətləri komandaları, həmçinin gimnastımız Veronika Qudis kompozisiyalarını təqdim ediblər.

Tədbirdə rəqqaslarımızın və nağaraçıların şousu tamaşaçıların böyük coşqusu ilə qarşılanıb.

On dörd ildən sonra ölkəmizin bədii gimnastika üzrə dünya çempionatına yüksək səviyyədə ev sahibliyi etdiyini bildirən Azərbaycanın Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov deyib: "Yüksək rəqabət şəraitində keçən çempionatda gimnastların maraqlı çıxışlarını izlədik. "Tokio 2020" Yay Olimpiya Oyunları öncəsi Bakıda təşkil olunan lisenziya xarakterli dünya çempionatı böyük önəm daşıyırdı. Artıq idmançıların həyəcanı geridə qaldı. Dünya çempionatı cari il ölkəmizdə gimnastika üzrə keçirilən sonuncu beynəlxalq turnir idi. Növbəti irimiqyaslı yarışlarda görüşənədək".






Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti Morinari Vatanabe deyib: "Nağıllar - hətta ən yaxşıları belə bitməlidir. Bir həftəlik yarışlardan sonra nağıl kitabımızı bağlamağın vaxtıdır. Bütün gimnastları gözəl çıxışlarına görə təbrik edirəm. Nağıl bəzi gimnastlar üçün "Tokio 2020" Yay Olimpiya Oyunlarında davam edəcək".

Yüksək təşkilatçılığa görə minnətdarlığını ifadə edən M.Vatanabe deyib: "Azərbaycan Gimnastika Federasiyasının və dünya çempionatının yerli Təşkilat Komitəsinin üzvlərinə yüksəksəviyyəli təşkilatçılığa görə minnətdarlığımı bildirirəm. Həmçinin gələcək nəslə gimnastika məşəlini ötürməyə kömək edən dünya çempionatının rəsmi səfiri Yana Batırşinaya da təşəkkürümü çatdırıram. Növbəti il Olimpiya Oyunlarının möcüzəsini yaşadan daha bir nağılı dinləmək üçün hamınızı Tokioda yenidən görməyə şad olarıq".

Sonra M.Vatanabe bədii gimnastika üzrə 37-ci dünya çempionatını bağlı elan edib.

Gənc gimnastımız Ceyla Əlizadə FIG-in bayrağını İ.İsmayılova təqdim edib. Gənclər və İdman nazirinin müavini bayrağı M.Vatanabeyə verib. FIG-in prezidenti isə bayrağı dəfələrlə Avropa və dünya çempionu olan, "Atlanta 1996" Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Y.Batırşinaya ötürüb.

Sonda dünya çempionatının ulduz səfiri, Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış "Birinci ol" mahnısını ifa edib.

"Nağıllar gerçəkləşəcək" devizi altında təşkil olunan dünya çempionatında 61 ölkədən 300-dən artıq gimnast iştirak edib. Gimnastlar çempionatda 9 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan gimnastı Z.Ağamirova və qrup hərəkətləri komandamız çoxnövçülük yarışlarında "Tokio 2020"yə vəsiqə qazanıblar.

# "Tevanik" Azərbaycan-İran dostluğunu sarsıtmaq məqsədi güdür

## Bu tipli "xeyriyyə" təşkilatlarının qanunsuz əməlləri reaksiyasız qalmamalıdır

Azərbaycan Respublikası milli müstəqilliyini bərpa edəndən bəri ilk növbədə qonşu dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan mehriban münasibətlər qurmağı özünün xarici siyasət xəttinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir və buna daim sadiq qaldığını nümayiş etdirir. Ötən dövr ərzində təcavüzkar Ermənistan istisna olmaqla dövlətimizin bütün qonşu ölkələrlə ikitərəfli və çoxtərəfli əlaqələri həmişə yüksələn xətlə inkişaf edir.

Bu baxımdan Azərbaycan-İran əməkdaşlığı diqqəti xüsusilə cəlb edir. Sovet imperiyasının süqutundan sonra yaranmış yeni tarixi şərait eyni mədəniyyəti paylaşan, əsrlər boyu bərabər yaşamış iki dost xalqın qarşılıqlı əlaqələri bərpa edib sıxlaşdırmasına imkan vermişdir. Bakı və Tehran bu məqsədə nail olmaq üçün xeyli məsafə qət etmiş, nəticədə ikitərəfli münasibətlər tarixdə ən yüksək səviyyəyə çatmışdır. Hazırda Azərbaycan-İran əlaqələri bir sıra sahələrdə strateji tərəfdaşlıq səciyyəsi daşıyır.

Sirr deyil ki, iki qonşu və dost ölkə arasında əməkdaşlığın belə bir səviyyəyə yüksəlməsi bəzi bədnam qüvvələri narahat edir. Bədxahlar Azərbaycan-İran dostluğunu sarsıtmaq, Bakı ilə Tehranın arasını vurmaq üçün heç bir fürsəti fövtə vermir, gah dezinformasiyaya əl atır, gah da konkret addımlara keçirlər. Söhbət ilk növbədə İrandakı erməni icmasının qanunsuz əməllərindən gedir.

Xeyli müddətdir ki, qonşu ölkədə yaşayan ermənilərin yaratdığı cürbəcür humanitar və iqtisadi təşkilatların fəaliyyətində Azərbaycan-İran dostluğuna xələl gətirmək aparıcı istiqamət kimi özünü göstərir. Bu qurumlar Ermənistanın İrandakı səfirliyinin fəaliyyətinə hərtərəfli dəstək verir və İranda Ermənistanın maraqlarını təşviq edir. Bir də görürsən ki, İran erməniləri Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistanındır!" şüarına dərhal reaksiya verib ağız-ağıza ulaşır, eyni məzmunlu plakat qaldırmaqdan çəkinmirlər.

Belə bədnam təşkilatlardan biri 2014-cü ildə yaradılmış "Tevanik" adlı "xeyriyyə" cəmiyyətidir. Cəmiyyətin Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirdiyi layihələr, onun üzvlərinin işğal altındakı Azərbaycan torpaqlarına qanunsuz səfərləri Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejimin mətbuatında geniş işıqlandırılır. "Travnik"in sosial şəbəkələrdəki səhifələri elə bil ki, yalnız Azərbaycan-İran dostluğunu "baltalamaq" üçün açılmışdır. Ermənistanın İrandakı səfirliyi də cəmiyyətin üzvləri ilə mütəmadi görüşlər və tədbirlər keçirir.

"Tevanik" Dağlıq Qarabağda yaşayan ermənilərə müxtəlif yardımların göndərilməsini, işğal olunmuş ərazilərdə hazırlanmış bir sıra məhsulların Tehranda və İranın digər şəhərlərində satışını təşkil edir. Məsələn, bu ilin aprelində "xeyriyyə" cəmiyyətinin işğal olunmuş Şuşa şəhərindəki erməni məktəbinə yardım aparması Ermənistan və separatçı rejimin KİV-ində "böyük humanitar missiya" kimi təqdim olunmuşdur.

Hamıya aydındır ki, İran ermənilərinin bu cür hərəkətləri Tehranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə mövqeyinə zidd olmaqla yanaşı, İran-Azərbaycan münasibətlərinə xələl gətirir, üstəlik, islam ümmətində parçalama yaratmaq niyyəti güdür. Ona görə də rəsmi Tehran ermənilərin bu cür qanunsuz əməllərinə reaksiyasız qalmamalıdır. İran hakimiyyət orqanları belə bədnam cəmiyyətlərin fəaliyyətini daim ciddi nəzarət altında saxlamalı, öz vətəndaşlarının dost Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə qanunsuz səfərlərinin və biznes fəaliyyətinin qarşısını dərhal almalı, İran dövlətinin rəsmi siyasətinə uyğun gəlməyən əməllər baş verdiyi zaman belə təşkilatların fəaliyyətini dayandırmalıdır.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# "Ziyalılarımızdan öyrənək" layihəsi uğurla icra olunur





O xalq, o millət xoşbəxtdir ki, onun həqiqi ziyalıları var, onun taleyi ilə maraqlanan, gələcəyini düşünən, onun tərəqqisi, inkişafı, yüksəlişi yolunda canını fəda etməyə hazır olan yetirmələri var.

Sağlam ictimai-siyasi, mədəni və mənəvi mühitin yaradılmasında, cəmiyyətin iqtisadi cəhətdən yüksəlməsində, milli mədəniyyətin tərəqqisində, yüksək etik, estetik keyfiyyətlərin, əxlaq qanun və qaydalarının bərqərar olmasında, elmin, maarifin inkişafında ziyalıların rolu, təbii ki, çox böyükdür.

Ziyalı sözü "ziya", yəni "işıq", "nur" sözündən düzəlib və mənası "işıqlı", "nurlu" deməkdir. Cəmiyyətin həyatına işıq saçan, gələcək inkişafına təkan verən, insanlara doğru yol göstərən şəxsiyyətdir ziyalı. Bilikli, savadlı, yüksək intellektli gənclərin yetişməsində ziyalılar əvəzsiz rol oynayırlar.

Mənəvi Dəyərlərin Təbliği Fondunun həyata keçirdiyi layihələrdən biri "Ziyalılarımızdan öyrənək" adlanır. Layihənin əsas məqsədi cəmiyyətin elm, mədəniyyət, incəsənət, təhsil, idarəçilik və digər sahələrində özünəməxsus yeri olan tanınmış ziyalılarımızın ölkənin müxtəlif regionlarında yaşayan gənclərlə görüşlərinin təşkil edilməsidir. Nəticədə gənclərimiz ziyalılarımızı yaxından tanıyır, onlardan yeni-yeni biliklər əldə edirlər.

Layihə çərçivəsində "Tariximizin izi ilə" adlı ilk seminar Quba rayonunda keçirilib. Tədbirdə fondun icraçı direktoru Mehman İsmayılov, M.Füzuli adına Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, dosent Əkrəm Bağırov, AMEA-nın Tarix institutunun aparıcı elmi işçisi, dosent Nigar Gözəlova, "Loqos" Psixoloji və Nitq İnkişafı Mərkəzinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Amal Əsgərov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, Quba Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov, ziyalılar, müəllimlər, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Sentyabrın 20-də Mənəvi Dəyərlərin Təbliği Fondunun və Şəki Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Şəki şəhərində Azərbaycan Respublikasının Xalq artisti, görkəmli teatr və kino aktyoru Nurəddin Mehdixanlının iştirakı ilə "Ziyalılarımızdan öyrənək" layihəsi çərçivəsində növbəti seminar keçirilib.

Tədbirdə fondun icraçı direktorunun müavini Ceyhun Əliyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbəsinin müdiri Taleh Abdullayev, Şəki Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov, ziyalılar, müəllimlər, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Şəki ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov layihənin əhəmiyyətindən danışaraq bildirib ki, ziyalılarımızın gənclərlə görüşünün təşkil edilməsi milli-mənəvi dəyərlərimizin təbliğinə, gənc nəslin savadlı, intellektual, əxlaqi-mənəvi dəyərlərlə zəngin şəxsiyyət kimi yetişməsinə böyük töhfə verir.

Tədbirdə çıxış edən fondun icraçı direktorunun müavini Ceyhun Əliyev qeyd edib ki, hər bir millətin mövcudluğu və mənəvi inkişafı onun ziyalılarının nisbətindən asılıdır. Ziyalı mənsub olduğu millətin simasını müəyyənləşdirən şəxsiyyətdir. Tarix göstərir ki, millətin çətin anlarında onun mükəmməl milli təəssübkeşlik duyğularına malik ziyalısı millətə düzgün yol göstərir, onun çətinlikdən xilas olmasında böyük rol oynayır. Xalqın içərisindən çıxıb ona xidmət göstərmək istəyən ziyalı üçün fəaliyyət dairəsi məhdud olmur. Əksər halda isə ziyalılar yaratdıqları zəngin mənəvi sərvətlə öz millətlərinin tarix səhnəsindən çıxarılmasının qarşısını alırlar.

Azərbaycan Respublikasının Xalq artisti Nurəddin Mehdixanlı bildirib ki, gənclərimiz doğulduqları gündən azad və müstəqil bir dövlətin vətəndaşı olduqları üçün çox xoşbəxtdir. Gənc dövlət olmağımıza baxmayaraq, bizim dövlətçilik tariximiz çox qədimdir. Azadlığımızın, müstəqilliyimizin rəmzi olan bayrağımızı, gerbimizi, himnimizi, dövlətçiliyimizi qorumaq hər bir azərbaycanlının borcudur. Bizim vahid milli ideologiyamız azərbaycançılıqdır. Ölkəmizdə yaşayan bütün xalqlar inkişafımızla fəxr etməli, Azərbaycanın müstəqilliyinin qorunması və dünyada tanıdılması üçün çalışmalıdırlar. Yalnız belə olan halda biz milli kimliyimizi qoruya, ona sahib çıxa bilərik. Milli kimliyimizin zəngin mənəviyyata sahib olmağımızla sıx bağlılığını diqqətə çəkən görkəmli teatr və kino aktyoru vurğulayıb ki, biz mənəvi dəyərlərlə zəngin bir millət olduğumuza görə müqəddəs islam dininin nazil olduğu ilk dövrlərdən onu rahatlıqla qəbul etdik, ona qucaq açdıq. Azərbaycan xalqının özünəməxsus, qədim tarixə malik milli kimliyi vardır ki, onun da formalaşmasında islam dininin xüsusi rolu var. Bu kimliyi bizə Allah bəxş edib. Biz qadınlarımıza yüksək dəyər verən, onları xanım, evimizin qoruyucusu adlandıran, hər zaman onlarla məsləhətləşən, onlara söz azadlığı, tariximizin müasir dövründə seçki hüququ verən bir millətin övladlarıyıq.

Keçirilən seminarlarda iştirakçılarla mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, ilin sonunadək davam edəcək "Ziyalılarımızdan öyrənək" layihəsi çərçivəsində ölkəmizin müxtəlif regionlarında gənclərin tanınmış ziyalılar ilə görüşlərinin keçirilməsi nəzərdə tutulur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Sərhədçi zabit ona bıçaqla xəsarət yetirən şəxsi tərk-silah edərək yaxalayıb

Dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən bildiriblər ki, sentyabrın 20-də saat 21:05 radələrində DSX-nin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad-Yardımlı avtomobil yolunda Buravar kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində içərisində iki nəfərin olduğu avtomobilin əraziyə yaxınlaşması, avtomobildən bir nəfərin düşərək özünü şübhəli aparması və ətrafı müşahidə etməsi sərhəd naryadının diqqətini cəlb edib.

Şübhəli şəxs gizlin yerdən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edərkən sərhədçilər tərəfindən ona "Dayan" əmri verilib, lakin o, əmrə tabe olmayaraq ərazidən uzaqlaşmağa çalışıb. Sərhəd naryadı tərəfindən yaxalanması zamanı şübhəli şəxs müqavimət göstərib, baş leytenant Allahverdi İsmayılova bıçaqla xəsarət yetirib. Buna baxmayaraq, sərhədçi zabit şücaət nümayiş etdirib, cinayətkarı tərk-silah edərək saxlayıb.

Hadisə zamanı xəsarət almış sərhədçiyə təxirəsalınmaz tibbi yardım göstərilib, vəziyyəti qənaətbəxşdir.

Saxlanılan şəxsin 1975-ci il təvəllüdlü Cəlilabad rayon sakini Əliyev Elşən Dövlət oğlu olması müəyyənləşdirilib. Əraziyə atılmış bağlamaya baxış zamanı içərisində 1 kiloqram 125 qram marixuana, 1 kiloqram 10 qram tiryək və 450 qram heroin narkotik vasitə aşkarlanaraq götürülüb. İdarə etdiyi avtomobil ilə hadisə yerindən qaçmış digər şəxsin saxlanılması istiqamətində təxirəsalınmaz əməliyyat-qoşun tədbirləri həyata keçirilib, ərazi dərhal qapadılaraq ətrafda axtarış aparılıb. Nəticədə hadisə yerindən qaçmış şəxs Cəlilabad rayonunun Buravar kəndinin yaxınlığında saxlanılıb. Həmin şəxsin 1979-cu il təvəllüdlü Naxçıvan Muxtar Respublikası, Babək rayon sakini Quliyev Samir Vidadi oğlu olması müəyyənləşdirilib. Avtomobilin içərisindən 55 qram tiryək və şəxsi əşyalar aşkarlanaraq götürülüb.

Fakt üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

# Xalq acından ölür, Paşinyanı isə yalnız hakimiyyət düşündürür

## Ermənistanda ictimai-siyasi vəziyyət daha gərgin mərhələyə keçib

Ermənistanda sosial-iqtisadi, ictimai-siyasi müstəvidə vəziyyətin getdikcə ağırlaşması müşahidə olunur. Həm əhalinin maddi rifah halının pisləşməsi, həm də daxili və xarici siyasətdə qeydə alınan uğursuzluqlar ondan xəbər verir ki, bunlar qarşıdakı günlər ərzində hakimiyyət üçün yeni problemlər yaradacaq. Bu hadisələr fonunda baş nazir Nikol Paşinyan isə hər vəchlə hakimiyyətini möhkəmləndirməyə çalışır. Son günlərdə baş tutan istefalar isə daxili siyasi gərginliyin ən yüksək mərhələdə olduğunu nümayiş etdirir.

Politoloq Armen Badalyan yenicə istefaya göndərilmiş Milli Təhlükəsizlik Xidmətinin sabiq başçısı Artur Vanetsyanın Paşinyana qarşı yeni siyasi hərəkat yarada biləcəyini vurğulayıb. Qeyd edib ki, Vanetsyan xalq arasında nüfuzu getdikcə azalan Paşinyan hökumətinə yaxşı alternativ ola bilər. Onun sözlərinə görə, Paşinyana qarşı yeni siyasi güc mərkəzi məhz Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları hesabına formalaşa bilər. Badalyan bildirib ki, Ermənistanın sabiq prezidentləri Robert Koçaryanın və Serj Sarkisyanın əks siyasi qütbə rəhbərlik etmək şansları yoxdur və bu məsələdə tamamilə yeni siyasətçilər önə çıxmalıdırlar. Bundan başqa, onların tərəfdarlarının təmsil olunduğu Respublikaçılar Partiyasının da sıraları getdikcə seyrəlir. Politoloq bu amillərə söykənərək iddia edib ki, Vanetsyanın qarşısında dura biləcək heç bir siyasi güc olmayacaq.

MTX-nin sabiq sədri reytinqinə görə Paşinyandan geri qalmır, onun kifayət qədər imkanları və xarici dəstəyi var. Rusiyanın timsalında Vanetsyanın ciddi dəstəyi var. MTX sədrinin öz istefası ilə bağlı açıqlamasında "Biri sanki mənə "dayan" deyir!" sözləri də vacib məqamlardan xəbər verir. Paşinyanın mətbuat katibi onun bu sözlərini şərh etməkdən imtina edib.

Ermənistan baş nazirinin MTX sədrindən sonra ölkənin polis rəisi Valeri Osipyanı da istefaya göndərməsi iqtidar daxilində ciddi ziddiyyətlərin daha bir göstəricisidir. Paşinyanın aparat rəhbəri bildirib ki, baş nazir onların fəaliyyətindən narazı olub, lakin hər iki sabiq vəzifəli şəxs cinayətdə ittiham edilmir. Belə ki, Vanetsyan Futbol Federasiyasının sədri, Osipyan isə baş nazirin müşaviri təyin ediliblər. Politoloqlar hesab edirlər ki, Paşinyanın bu kosmetik addımları iqtidarın daxilində getdikcə güclənən ziddiyyətlərin qarşısını ala bilməyəcək.

Yerli mətbuatın yazdığına görə, Paşinyan Milli Təhlükəsizlik Xidmətinin sədri və polis rəisi vəzifələrinə istədiyi adamları təyin edə bilmir. "Lragir" qəzetinin yazdığına görə, Nikol Paşinyan "İşıqlı Ermənistan" parlament fraksiyasının təqdim etdiyi namizədlərin qəbul olunmasını gözləyir. Məlumata görə, sentyabrın 20-də Ermənistan parlamentində güc strukturlarına rəhbərlərin təyin edilməsi haqqında sənədə dəyişikliklər ikinci oxunuşda qəbul olunub. Dəyişiklik baş nazirə polis və MTX rəhbərliyinə bu sahənin mütəxəssisi olmayan, Ermənistanın 25 yaşı tamam olmuş, 4 il ölkə ərazisində yaşamış istənilən vətəndaşını təyin etməyə imkan verir. Bu qanun cari ilin noyabrında qüvvəyə minəcək.

Nikol Paşinyan polis rəisi vəzifəsinə müvəqqəti olaraq Yerevan meri Hayk Martunyanın dostu Arman Sarkisyanı, Dövlət Təhlükəsizliyi Xidmətinin direktoru vəzifəsinə isə qurumun direktor müavini Eduardı təyin edib. Arman Sarkisyanın bu vəzifədə qalacağı gözlənilən olsa da, Martirosyanın direktor olacağı az ehtimal olunur.

Hadisələrin bu səpkidə cərəyan etdiyi bir vaxtda Rusiyanın "Prtime.ru" saytında erməni politoloq Styopa Safaryan və Ermənistanın baş naziri Nikol Paşinyanla onun mətbuat katibi Vladimir Karapetyanın gizli və bir o qədər də alçaldıcı "Whatsapp" yazışmalarını ortaya çıxarıb. Qeyd olunub ki, bu yaxınlarda Styopa Safaryana məxsus olan "iPhone" markalı telefon itib. Əslində isə bu hadisə planlı şəkildə və siyasi motivlər əsasında hazırlanıb. Hücum isə bir qrup şəxs tərəfindən həyata keçirilib.

Bu faktlar Safaryana məxsus telefonun itməsindən sonra mətbuata sızıb. Telefonda baş nazir Nikol Paşinyana, onun mətbuat katibi Vladimir Karapetyana və Styopa Safaryana məxsus "Whatsapp" yazışmaları var. Yazışmalarda üçlük arasında rüşvət sövdələşmələrindən və pulla kiminsə prokuror vəzifəsinə gətirilməsindən və həmin şəxsdən 30 milyon dram rüşvət alınmasından bəhs olunur. Baş nazirin mətbuat katibi Vladimir Karapetyan dəllallıq edən Safaryana baş nazirlə olan söhbəti barədə yazır, hətta vurğulayır ki, baş nazir çox dözülməz insandır, hərdən elə danışır ki, istər-istəməz insanda ikrah hissi yaradır.

Yazışmalarda "Baba" adlandırılan şəxs isə Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyandır. Məlum olur ki, Nikol Paşinyan atdığı hər addımı onunla bölüşür, məsləhət alır.

Bu gün Ermənistanda reallıq həm də ondan ibarətdir ki, xalq aclıq çəkir. Paşinyan isə hakimiyyətini möhkəmlətmək üçün bütün vasitələrə əl atır. Buna görə hər an sosial partlayışların olacağı istisna edilmir. Son illər səfalət içində yaşayanların sayı bir qədər də artıb. Reallıqda işğalçı ölkənin əhalisinin yarıdan çoxunun aclıq problemi ilə üzləşməsi danılmazdır. Ermənistanda azgəlirli ailələr çörək məmulatlarını artıq kartofla əvəz ediblər. Yoxsul həyat tərzinə dözə bilməyən əhali miqrasiyaya üstünlük verir. Nəticədə kəndlər boşalır, infrastruktur dağılır. Kəndlərdə əsasən qadınlar, uşaqlar və yaşlı insanlar yaşayır. Həmin ailələrin əməkqabiliyyətli kişiləri isə ölkə xaricində miqrant kimi çalışır.

Ermənistanda vəziyyəti ağırlaşdıran digər bir cəhət isə işsizlik səviyyəsinin durmadan yüksəlməsidir. Araşdırmalara görə, əməkqabiliyyətli əhalinin yarıya qədəri hazırda işsizdir. Aydındır ki, bu vəziyyətdə Paşinyanın da uzun müddət iqtidarda qala bilməsi ciddi sual altına düşür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun nəzdində olan Sosial Xidmət Müəssisələri üçün istifadə ediləcək digər maşın və avadanlıqların satın alınması ilə əlaqədar açıq tenderə dəvət edir

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun nəzdində olan Sosial Xidmət Müəssisələri üçün istifadə ediləcək digər maşın və avadanlıqların satın alınması

**İştirak haqqı 400,00 (dörd yüz) manat**
**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**H/h: AZ91CTRE00000000000002138206**
**Büdcə gəlirlərinin təsnifat kodu: - 142340**
**Büdcə səviyyəsinin kodu: - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.10.2019-cu il saat 18:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **23.10.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **23.10.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Qobustan Rayon İcra Hakimiyyəti Qobustan şəhərində istismar müddəti başa çatmış 6 ikimərtəbəli 8 mənzilli binada yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi ilə bağlı

### *açıq tender elan edir*

**LOT 1- Qobustan şəhərində 48 mənzilli yaşayış binasının tikintisi**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 AZN**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Hesab: AZ37AIIB32051019447200201172**
**VÖEN: 4800016471**
**Bank: Kapital Bankın Qobustan rayon filialı**
**Bank VÖEN: 9900003611**
**Kodu: 200725**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri və tender təklifi ilə bank təminatı sənədlərini 12.10.2019-cu il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 14.10.2019-cu il saat 14:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Yeni Binqo" tirajlı lotereyasının şərtləri və qazanılmış "CekPot"lar barədə məlumat

AZƏRLOTEREYA

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti tərəfindən keçirilən "Yeni Binqo" tirajlı lotereyası həftənin bazar ertəsi günü Space kanalının canlı efirində yayımlanır. "Yeni Binqo" tirajlı lotereya biletinin qiyməti 1 (bir) manatdır. "Yeni Binqo" tirajlı lotereyasının uduş fondunun oynanılması lototron vasitəsilə həyata keçirilir. Lototronda 1-dən 60-dək nömrələnmiş şarlar yerləşdirilir. Şarlar qarışdırılaraq təsadüf prinsipinə əsasən lototrondan bir-bir ardıcıllıqla çıxarılır. Lotereya biletinin üzərində 5 (beş) sətrdən ibarət bir lövhə əks olunub. Oyunun mahiyyəti lototrondan çıxmış şarların nömrələrinin lotereya biletinin sətirlərində əks olunmuş rəqəmlər ilə üst-üstə düşməsindən ibarətdir. "Yeni Binqo" tirajlı lotereyasında lotereya həvəskarlarını möhtəşəm "Cek Pot", "Meqa Pot", "Binqo", "Super Binqo" və "Fortuna" pul mükafatları öz şanslı sahiblərini gözləyir.

Lotereya biletlərinin satışı "LottoYayım" MMC "Mobil loto", **www.azerlotereya.com** veb saytı vasitəsilə həyata keçirilir. "Azərlotereya" ASC-nin yeni innovativ layihəsi olan Mobil tətbiq (Mobil application) artıq lotereya həvəskarlarının istifadəsinə verildi. "Mobil tətbiq" proqram təminatını "Android" və "İOS" əməliyyat sistemləri ilə təchiz olunmuş smartfonlar vasitəsilə "AppStore" və ya "Playmarket"dən yükləyə bilərsiniz. "Mobil tətbiq" vasitəsilə biletləri yoxlamaq, tirajların nəticələri ilə tanış olmaq və lotereya biletlərini əldə etmək mümkün olacaq.




2019-cu ilin 8 ayı ərzində "Yeni Binqo" tirajlı lotereyasında 10 ədəd ümumi məbləği 350 300 manat təşkil edən iri pul mükafatları qazanılmışdır. Bunlardan "Super Binqo" 91 000 manat, "MeqaPot" 75 000 manat, "Binqo" 50 000 manat, "Fortuna" 60 000 manat, "CekPot"lar 43 300, 6 000, 5 000, 7 000, 4 000 və 9 000 manat məbləğində pul mükafatları lotereya qaliblərinə ödənilmişdir.

Azərbaycan Respublikasının ərazisində "Azərlotereya" ASC-nin təşkil etdiyi lotereyalarda 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilərlər.

"Azərlotereya" ASC hər bir lotereya iştirakçısına bol-bol uğurlar arzulayır.

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyətinin təşkil etdiyi lotereya biletlərini əldə edin, şanslı lotereya iştirakçısına çevrilin və qalib olun!

***Sizin "Azərlotereya"***

## BİLDİRİŞ

"VIII Beynəlxalq Tullantıdan Sənətə" sərgisinin təşkili işlərinin satın alınması məqsədilə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin keçirdiyi açıq tenderdə ən az qiymət təklifi vermiş "R&R Müstəqil Yayım və Media" MMC qalib elan edilmiş və həmin təşkilatla 17 sentyabr 2019-cu il tarixli müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"**

publik hüquqi şəxs (DOST Agentliyi) Agentliyin inzibati binasında yanğın əleyhinə mühafizə sisteminin normal fəaliyyətini təmin etmək üçün periodik (il ərzində 12 dəfə) texniki xidmətin keçirilməsi ilə bağlı iş və xidmətlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar +99412 525-50-26 (daxili: 9035) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 26 sentyabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı, 86 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**"Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"**

publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzi, inzibati binada quraşdırılmış 2 (iki) ədəd "Kone" markalı sərnişin liftlərinə (il əzində 12 dəfə) texniki xidmətin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar +99412 525-50-26 (daxili: 9308) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 26 sentyabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı, 86 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## Fövqəladə Hallar Nazirliyi
## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Nazirliyin Aparatının və strukturuna daxil olan qurumların ehtiyaclarını təmin etmək üçün poliqrafiya məhsullarının satın alınması üzrə

### *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra 02 oktyabr 2019-cu il saat 16:00-a qədər AZ1073, Bakı şəhəri, M.Müşfiq küçəsi, 501-ci məhəllə (Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi) ünvanına (əlaqələndirici şəxs: Elnar İmanov, telefon: 012 512-01-20) müraciət edə bilərlər.

İddiaçıların təkliflər zərfi 03 oktyabr 2019-cu il saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaq.

**Fövqəladə Hallar Nazirliyi**
**Hesab: AZ88CTRE00000000000002658471**
**VÖEN: 1300959901**
**Büdcə səviyyə kodu: 7**
**Büdcə təsnifatı kodu: 142340**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin Bakı Şəhəri Reklam İdarəsi bildirir ki, 23 sentyabr 2019-cu il tarixdən Bakı şəhəri, Nəsimi rayonu, Füzuli küçəsi, 37 ünvanında fəaliyyət göstərəcəkdir.

**Əlaqə nömrəsi: 051 940-20-80.**

## BİLDİRİŞ

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə "Göy Qurşağı-Məmmədli" MTK, "UNİSTONE" MMC, "SARAY-H" MTK, "Bakı Mexanikləşdirmə-1" ASC, "EVRO İnşaat" MTK, fiziki şəxs - Natiq Allahverdi oğlu Əliyev və fiziki şəxs - Asif Akif oğlu Əsədzadə arasında müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***

## Sumqayıt Regional Mədəniyyət İdarəsi

### *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

LOT-1. Sumqayıt şəhəri, Bülbül adına 2 nömrəli uşaq musiqi məktəbinin əsaslı təmiri.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini elektron qaydada təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**LOT üzrə iştirak haqqı 100 (yüz) manat.**
**Əlaqələndirici şəxs: Əhmədov İlham, tel.: 018 6541429.**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**A1. Benefisiar (alan) bank**
**Adı Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Sumqayıt Regional Mədəniyyət İdarəsi**
**H/h: AZ65CTRE00000000000002176601**
**VÖEN: 2900382551**
**Ünvan: Sumqayıt şəhəri, N.Nərimanov küçəsi, 72**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 16 oktyabr 2019-cu il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə 23 oktyabr 2019-cu il tarixdə saat 17:00-a qədər elektron qaydada təqdim etməlidirlər. Təklif zərfləri 24 oktyabr 2019-cu il saat 12:00-da satınalmaların vahid internet portalı vasitəsilə elektron qaydada açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən 11 sentyabr 2019-cu il tarixdə elan edilmiş kotirovka sorğusu metodu ilə havalandırma avadanlıqlarının normal fəaliyyətini təmin etmək üçün periodik texniki xidmətin həyata keçirilməsi ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "AZAVS" MMC olmuşdur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı "DOST" Mərkəzi tərəfindən 11 sentyabr 2019-cu il tarixdə elan edilmiş kotirovka sorğusu metodu ilə inzibati binanın fasad örtüyünün yuyulması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "NM Service" MMC olmuşdur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı "DOST" Mərkəzi tərəfindən 11 sentyabr 2019-cu il tarixdə elan edilmiş kotirovka sorğusu metodu ilə binanın həyətyanı sahəsində abadlıq işlərinin aparılması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "AZ AVS" MMC olmuşdur.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Abdullayevlər ailəsi Nağıyevlər ailəsinə əzizləri

TƏYYBƏ BALAMƏMMƏDQIZININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9028
Sifariş 3162
Qiyməti 40 qəpik